Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 254 (7981) BAZAR, 11 noyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





# “Made in Azerbaijan” - keyfiyyət yüksəlir, kəmiyyət artır

## Azərbaycan qeyri-neft məhsullarının fəal ixracatçısına çevrilir

**Ölkəmizdə uğurla reallaşdırılan iqtisadi islahatların prioritetlərindən biri də ixracın genişləndirilməsi, “Made in Azerbaijan” brendi adı altında qeyri-neft məhsullarının istehsalının və ixracının təşviqidir.**

**Artıq demək olar ki, Azərbaycan brendi dünyada şöhrət qazanır və ixrac coğrafiyası hər keçən gün daha da genişlənir.**

**Xarici ölkələrə təşkil edilən ixrac missiyalarının uğurlu fəaliyyəti sayəsində həm tərəfdaşların sayı, həm də ixrac edilən məhsulların həcmi, çeşidi də çoxalır. Azərbaycanın xaricdəki ticarət evlərinin sayı getdikcə artır.**

### Əlaqələr genişlənir, ixracın coğrafiyası böyüyür

Ötən 9 ay müddətində bu istiqamətdə həyata keçrilən proseslər və əldə edilən uğurlar da bu fikirləri söyləməyə əsas verir. Beləliklə, bu ilin 9 ayı ərzində -

- *170-dən çox ölkə ilə xarici ticarət əlaqələri qurulub;*
- *14,3 milyard dollarlıq məhsul ixrac edilib;*
- *dünyanın 22 ölkəsinə peyk xidmətindən 16,7 milyon dollar gəlir gəlib;*
- *“Azexport.az” portalına 43 milyon dollarlıq ixrac sifarişləri gəlib;*
- *sahibkarlara 3,7 milyon manat məbləğində ixrac təşviqi ödənilib;*
- *12 ölkəyə 17 ixrac missiyası təşkil olunub;*
- *Ukrayna, Latviya və Çində “Azərbaycan Ticarət Evi” fəaliyyətə başlayıb;*
- *Çində iki “Azərbaycan Şərab Evi” açılıb.*

Aydın şəkildə görünür ki, ixracın təşviqi, qeyri-neft sənayesinin inkişafı və “Made in Azerbaijan” brendi ilə dünya bazarına çıxarılan məhsulların ixrac coğrafiyasının genişləndirilməsi istiqamətində atılan addımlar, verilən qərarlar ölkəyə böyük dividendlər qazandırmaqdadır.

Qeyri-neft məhsulları ixracının təşviqi istiqamətində həyata keçirilən tədbirlər sahibkarların öz məhsullarını ixrac etməyə marağını artırıb. İxracın genişləndirilməsi, rəqabətqabiliyyətli məhsulların ənənəvi və yeni bazarlara çıxışının artırılması ilə bağlı imzalanmış sənədlər iş adamlarına geniş imkanlar yaradıb.

### Qeyri-neft sektoru üzrə ixrac 1 milyard 207 milyon dollardır

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “İxrac İcmalı”nın bu ilin oktyabr sayında da əldə edilən uğurlar bir daha təsdiq olunur.

İcmalın bu sayında 9 ay ərzində 14,3 milyard dollar təşkil edən ixracın təsnifatı əksini tapıb. Bu müddətdə Azərbaycanda qeyri-neft sektoru üzrə ixrac 1 milyard 207 milyon dollar olub. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin 9 ayı ərzində qeyri-neft sektoru üzrə ixrac 138 milyon dollar və ya 13 faiz artıb.

### Məhsullarımızı ən çox alan yenə Rusiyadır

İqtisadi əlaqələrini daim genişləndirən Azərbaycanın ixrac imkanları getdikcə artır. Xarici iqtisadi əlaqələrin mühüm tərkib hissəsi olan ticarət fəaliyyətini tənzimləyən qanunvericilik daha da təkmilləşdirilir. Bunun səbəbidir ki, ölkəmizlə ticarət tərəfdaşlığı quran dövlətlərin sayı da artır.

Məhsullarımızın ən çox ixrac olunduğu ölkələr arasında Rusiya yenə də liderdir. Belə ki, 9 ay ərzində Rusiyaya 402,2 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub. İkinci yerdə isə Türkiyədir. Qardaş ölkə bu müddət ərzində Azərbaycandan 275,6 milyon dollarlıq mal alıb. Üçüncü yeri isə bu dəfə 105,2 milyon dollarla İsveçrə tutub. 4-5-ci yerlərdə 97,4 milyonla Gürcüstan, 34,3 milyon dollarla Qazaxıstan qərarlaşır.

2018-ci ilin sentyabr ayında isə qeyri-neft sektoru üzrə ixrac 114 milyon dollar təşkil edib və ən çox mal ixrac edilən ölkələrin siyahısına Rusiya (27 milyon) başçılıq edib. Daha sonra siyahıda Türkiyə (25,7 milyon), İsveçrə (13 milyon), Gürcüstan (8,9 milyon) və Qazaxıstan (3,8 milyon) qərarlaşıb.

### Pomidor liderliyini qoruyur - 145 milyon dollarlıq gəlir

Bu ilin 9 ayı ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pomidor liderliyini qoruyaraq 145 milyon dollar həcmində olub. Bu siyahıda qızıl (93 milyon) ikinci, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen (68 milyon) üçüncü olub.

Ümumiyyətlə, 2018-ci ilin yanvar- sentyabr ayları ərzində meyvə-tərəvəz ixracı 342,5 milyon, plastmas və onlardan hazırlanan məmulatların ixracı 95,7 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 97,2 milyon, elektrik enerjisinin ixracı 60 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 64,3 milyon, pambıq lifi ixracı 62,7 milyon, kimya sənayesi məhsullarının ixracı 56,9 milyon, pambıq ipliyi ixracı 17 milyon dollar təşkil edib.

### “Azərkosmos” bir ayda 1,4 milyon dollarlıq xidmət ixrac edib

“İxrac İcmalı” xidmət ixracına da yer ayırıb. Göstərilir ki, ötən müddətdə “Azərkosmos” tərəfindən dünyanın 22 ölkəsinə xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib. 9 ayda “Azərkosmos” peyk və telekommunikasiya xidmətlərinin ixracından 16,7 milyon dollar məbləğində gəlir əldə edib.

Sentyabr ayında isə “Azərkosmos”un xidmət ixracının dəyəri 1,4 milyon dollar olub. Qurumun 9 ay ərzində xidmət ixracı həyata keçirdiyi əsas ölkələr Fransa, Malayziya, BƏƏ, Almaniya, Gürcüstan və digərləridir.

### 21 ay ərzində 106 ölkədən 885 milyon dollarlıq sifariş

Bu müddət ərzində “Azexport.az” portalına daxil olan ixrac sifarişləri 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə dəyər baxımından 15 faiz artıb. Quruma 43 milyon dollar məbləğində ixrac sifarişləri daxil olub. Ümumilikdə isə 2018-ci ilin ötən 9 ayı ərzində portala daxil olan ixrac sifarişlərinin dəyəri 410 milyon dollar təşkil edib.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2018-ci ilin 30 sentyabr tarixinə kimi (21 ay ərzində) portala dünyanın 106 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 885 milyon dollar olub.

### İxracın təşviqi - 180 tədbir, 9 anlaşma memorandumu

Ölkəmizdə qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən islahatlar, rəqabətədavamlı qeyri-neft istehsalının stimullaşdırılması, ixracatçılara yaradılmış əlverişli imkanlar, “Made in Azerbaijan” brendinin xarici ölkələrdə tanıdılması və xarici investisiyaların təşviqi istiqamətində görülən işlər göz önündədir. Ötən müddət ərzində 170-dən çox ölkə ilə yaradılan xarici ticarət əlaqələri daha da genişləndirilməkdədir.

Prezident İlham Əliyevin ixracın stimullaşdırılması və təşviqi istiqamətində imzaladığı fərman və sərəncamlara əsasən bu istiqamətdə genişmiqyaslı işlər görülməkdədir. Belə ki, ixrac və investisiya imkanlarının təşviqi, yerli şirkətlərin biznes əlaqələrinin daha da genişləndirilməsi və ölkə iqtisadiyyatına investisiya qoyuluşunun təbliği məqsədilə 9 ay ərzində Azərbaycanda və xarici ölkələrdə 180 tədbir (biznesforumları, ikitərəfli görüşlər və s.) təşkil olunub. Bu ilin əvvəlindən 8 ölkənin müxtəlif təşkilatları ilə əməkdaşlığa dair 9 anlaşma memorandumu imzalanıb.

### İndiyədək sahibkarlara 6,9 milyon manat ixrac təşviqi ödənilib

Ötən dövrdə İxracatçılar Klubunun keçirdiyi 17 iclasdan 14-ü Bakıda, 3-ü isə regionlarda təşkil olunub. Ümumilikdə indiyədək sahibkarlara 6,9 mliyon manat, bu ilin yanvar-sentyabr aylarında isə 3,7 milyon manat məbləğində ixrac təşviqi ödənilib.

Qeyri-neft məhsullarının ixracı üçün mövcud və yeni bazarlara çıxış imkanlarının genişləndirilməsi məqsədilə tətbiq olunan mexanizmlərdən biri də bazar araşdırmalarının aparılmasıdır. İndiyədək ixracla məşğul olan sahibkarlıq subyektlərinin müraciətləri əsasında ümumilikdə 12 bazar araşdırması aparılıb.

### 4 ölkəyə ixrac missiyası təşkil olunub

Yerli məhsulların xarici ölkələrdə təşviqi məqsədilə İqtisadiyyat Nazirliyinin dəstəyi, AZPROMO-nun təşkilatçılığı ilə Rusiya, İsveçrə, Çin və Qazaxıstana ixrac missiyası həyata keçirilib.

Ümumilikdə isə indiyədək 12 ölkəyə 17 ixrac missiyası təşkil olunub və Azərbaycan şirkətləri 6 olkədə keçirilən 14 beynəlxalq sərgidə “Made in Azerbaijan” vahid ölkə stendində öz məhsullarını nümayiş etdiriblər.

Bu ilin 9 ayı ərzində Ukrayna, Latviya və Çində “Azərbaycan Ticarət Evi” fəaliyyətə başlayıb. Ümumilikdə isə, hazırda 4 xarici ölkədə “Azərbaycan Ticarət Evi” fəaliyyət göstərir. Bu ilin sentyabrında Çində ilk “Azərbaycan Şərab Evi” açılıb.

### Bu il 3 ölkədə “Ticarət Evi”, 2 ölkədə “Şərab Evi” açılacaq

Onu da vurğulayaq ki, yerli məhsulların xarici bazarlarda tanıdılması istiqamətində tədbirlər davam etdirilir. Belə ki, bu ay Çinin Şanxay şəhərində “Şərab Evi”, ilin sonunadək Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Polşa və Qazaxıstanda “Azərbaycan Ticarət Evi”, Rusiyada isə “Şərab Evi”nin açılması nəzərdə tutulur. Bununla yanaşı, hazırda Azərbaycanın xarici ölkələrdə 4 ticarət nümayəndəliyi fəaliyyət göstərir: Rusiya, Çin, Şərqi Avropa və BƏƏ.

Ölkəmizin ixrac və investisiya imkanlarının təşviqi, Azərbaycan məhsullarının xarici bazarlarda tanıldıması tədbirlərinin davamı olaraq ilin sonunadək Çin, Bolqarıstan, BƏƏ və Səudiyyə Ərəbistanına ixrac missiyaları təşkil ediləcək.

### Yeni mərhələnin əsas hədəfləri

Bu gün qarşıda duran əsas vəzifə ixracın həm çeşidi, həm də coğrafiyası baxımından şaxələndirilməsidir. Bu məqsədlə ixracın təşviqi, “Made in Azerbaijan” brendinin xarici bazarlarda təşviqi, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlərin alınması istiqamətində işlər davam etdirilir.

İqtisadiyyatın şaxələndirilməsi, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi, özünütəminat səviyyəsinin yüksəldilməsi, məşğulluğun təmin olunması, qeyri-neft məhsullarının ixracının artırılması, idxaldan asılılığın azaldılması və digər strateji vəzifələrin həllində özəl sektor həlledici rola malikdir.

Yeni mərhələnin əsas hədəfi milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına nail olmaqla uzunmüddətli perspektivdə ölkədə sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# ABŞ Azərbaycan ilə strateji əlaqələrə böyük önəm verir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 9-da ABŞ Nəqliyyat Komandanlığının komandanı general Stefen Lyonsun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Azərbaycan ilə ABŞ arasında möhkəm tərəfdaşlıq əlaqələrinin mövcud olduğunu bildirərək, ikitərəfli münasibətlərin müxtəlif istiqamətləri, o cümlədən siyasi, iqtisadi, enerji və müdafiə sahələrini əhatə etdiyini dedi və uzun tarixə malik əməkdaşlığımızın genişlənməsindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev ABŞ-ın yüksəksəviyyəli rəsmilərinin Azərbaycana səfərlərinin münasibətlərimizin inkişafında rolunu qeyd etdi. Dövlət başçısı Əfqanıstanda ölkələrimizin beynəlxalq sülh və sabitliyə töhfə verdiklərini bildirərək, Azərbaycanın bu ölkədə sülhməramlı əməliyyatlarda iştirak edən ilk dövlətlərdən biri olduğunu dedi. Prezident İlham Əliyev Azərbaycanın orada iştirak edən əsgərlərinin sayının bu yaxınlarda daha da artırıldığını və Azərbaycanın Əfqanıstandakı Qətiyyətli Dəstək Missiyasına töhfələrinin, NATO ölkələrinə göstərdiyi nəqliyyat-logistika dəstəyinin NATO üzv dövlətləri tərəfindən yüksək qiymətləndirildiyini vurğuladı.

Bu baxımdan dövlət başçısı NATO mənzil-qərargahına son səfərini və NATO-nun ali orqanı olan Şimali Atlantika Şurasındakı çıxışını xatırlayaraq, orada əməkdaşlığımızın səviyyəsinə böyük önəm verildiyinin şahidi olduğunu qeyd etdi. Əfqanıstanla ikitərəfli münasibətlərə toxunan dövlət başçısı qeyd etdi ki, bu münasibətlər böyük önəm daşıyır və ölkəmiz Əfqanıstan hökumətinə müxtəlif sahələrdə öz yardım və dəstəyini göstərir. Bu baxımdan Prezident İlham Əliyev Əfqanıstanda sabitlik və təhlükəsizliyin təmin olunmasına töhfə vermək məqsədilə keçən il ölkəmizin “Asiyanın Qəlbi-İstanbul Prosesi” çərçivəsində yüksəksəviyyəli tədbirə evsahibliyi etdiyini bildirdi.

Azərbaycanda nəqliyyat infrastrukturu, o cümlədən avtomobil və dəmir yolları, hava və dəniz limanlarına böyük həcmdə investisiya qoyulduğunu bildirən Prezident İlham Əliyev Azərbaycanın nəinki regionda, daha geniş məkanda ən güclü nəqliyyat infrastrukturuna malik ölkələrdən biri olduğunu dedi.

Prezident İlham Əliyev ABŞ Nəqliyyat Komandanlığının komandanı general Stefen Lyonsun səfərinin əməkdaşlığın perspektivləri ilə bağlı müzakirələrin aparılması üçün yaxşı imkan yaratdığını bildirdi.

ABŞ Nəqliyyat Komandanlığının komandanı general Stefen Lyons ilk növbədə dövlətimizin başçısına Bayraq Günü münasibətilə öz təbriklərini çatdırdı. O bildirdi ki, Azərbaycan ilə ABŞ arasında strateji əlaqələr çox böyük önəm daşıyır. Stefen Lyons Azərbaycanın Əfqanıstandakı Qətiyyətli Dəstək Missiyasında nəqliyyat sahəsinə böyük dəstək verdiyini və bunun yüksək qiymətləndirildiyini bildirdi. O, Əfqanıstanda xidmət etmiş hərbçi kimi Azərbaycanın bu ölkədə yüksək səviyyədə həyata keçirdiyi işlərin şahidi olduğunu dedi.

# Azərbaycan parlamenti dövrün yeni inkişaf mərhələsində



**Artıq 23 ilə yaxındır ki, Azərbaycan Respublikasının Milli Məclisi qanunvericilik hakimiyyəti səlahiyyətlərini uğurla yerinə yetirir.**

Bu dövr ərzində parlament ölkəmizdə həyata keçirilən hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunun möhkəm hüquqi bazasını yaratmış və təkmilləşdirmişdir. 1995-ci ildən indiyədək Milli Məclis ölkə daxilində gedən proseslərin və beynəlxalq aləmdə baş verən hadisələrin mahiyyətinə uyğun olaraq dövlətin və cəmiyyətin həyatının müxtəlif sahələrini nizama salan minlərlə qanun və qərar qəbul etmişdir.

2015-ci ilin noyabr ayından fəaliyyətə başlamış beşinci çağırış Milli Məclis də əvvəlki dövrlərdə formalaşmış parlamentarizm ənənələrini yeni keyfiyyətdə daha da inkişaf etdirmiş və zənginləşdirmiş, parlamentin peşəkarlıq səviyyəsi yüksəlmişdir. Respublikanın ali qanunvericilik orqanı ölkəmizin neft erasından sonrakı yeni inkişaf mərhələsində cəmiyyətin təkamül yolu ilə daim dəyişən həyat şəraitinə uyğunlaşmasını təmin edən ən mühüm vasitələrdən biri kimi üzərinə düşən missiyanı yüksək səviyyədə daşımaqdadır. Bu istiqamətdə əldə edilən nəticələr, daxili həyatımızın bütün sahələrini, habelə xarici siyasət fəaliyyətini əhatə edən genişmiqyaslı işlər Milli Məclisin müasir çağırışlara cavab verən məhsuldar fəaliyyətinin göstəricisidir.

*Ardı 4-cü səh.*

# İlkini “Çıraq” olan AÇG ailəsi getdikcə böyüyür

## “Əsrin müqaviləsi” çərçivəsində neft hasilatına başlanmasından 21 il keçir

**1997-ci il noyabr ayının əvvəlində “Çıraq” platformasından hasilata başlanması ilə AÇG (“Azəri-Çıraq-Günəşli”) yataqlarından əməliyyatlara start verildi. Noyabrın 12-də bu münasibətlə platformada təntənəli mərasim keçirildi. Ulu öndər Heydər Əliyevin tədbirdə iştirak etməsi və AÇG tərəfdaşlarının nümayəndələri, neftçilər, xarici ölkələrdən gəlmiş qonaqlar qarşısında çıxış etməsi bu hadisənin önəmini bir daha təsdiqlədi.**



“Çıraq” platforması Xəzərdə, Bakı şəhərindən 120 kilometr şərqdə yerləşir. Onun dayaqları suyun 120 metr dərinliyində qərar tutub. Platformanın qurğularından quyuların qazılmasına 1997-ci ilin avqustunda başlanmışdı. “Çıraq”dan neftin əldə edilməsi “Əsrin müqaviləsi”nin ilk böyük uğuru oldu.

Hər bir yataqdan hasilata başlanması iqtisadi cəhətdən böyük əhəmiyyət daşıyır, ölkənin neft sənayesində mühüm hadisə sayılır. “Çıraq”dan ilk neftin alındığı gün isə bütövlükdə Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Çünki bu, həmin vaxt iqtisadi durumu çox zəif olan ölkənin dirçəlişinə və böyük gələcəyinə hesablanmış “Əsrin müqaviləsi” çərçivəsində çıxarılan ilk neft idi. Bununla da çətin sınaqlardan keçmiş qlobal bir layihənin gerçəkliyə çevrildiyi təsdiq olundu.

Eləcə də saziş imzalanandan cəmi üç il sonra layihə çərçivəsində neft hasil olunması dünyada misli görünməmiş nailiyyət idi. Çünki istənilən sazişin imzalanmasından ilk neftin alınmasınadək olan dövr genişmiqyaslı işləri əhatə edir və onların belə tez bir zamanda yerinə yetirilməsi nadir hallarda baş verir. Odur ki, mövcud “Çıraq-1” platformasının əsaslı təmir olunmasının, Xəzərin sahilində Səngəçal və Qara dənizin sahilində Supsa terminalları yaradılmasının, hasil olunan nefti quruya çıxarmaq üçün sualtı boru xətlərinin çəkilməsinin üç ilə başa çatması əsl rekord idi.

“Çıraq”dan neft hasilatına başlanması ilk növbədə “Əsrin müqaviləsi”nin reallığını, düzgün müəyyənləşdirilmiş strategiya olduğunu sübut etdi. Bu hadisə həm də Azərbaycanın necə geniş əməkdaşlıq əlaqələri qurmaq, tərəfdaşlıq formatı yaratmaq qabiliyyətini və bunun bəhrə verdiyini göstərdi.

“Çıraq” nefti 24 düymlük sualtı kəmərlə Səngəçal terminalına nəql edilir. Bu xəttin uzunluğu 154 kilometrdir. Terminalda neft tərkibindəki sulardan təmizlənir, çənlərə vurulur, sonra dünya bazarlarına yola salınır. Yataqdan çıxarılan səmt qazı uzunluğu 50 kilometr olan 16 düymlük sualtı kəmərlə Neft daşlarındakı kompressor stansiyasına ötürülür. İlkin neftin əldə olunduğu gündən ötən 21 il ərzində platforma təmir və profilaktika üçün ayrılmış qısa fasilələr nəzərə alınmasa, ahəngdar işləyir.

“Çıraq” neft hasil edilən platforma anlayışı çərçivəsindən xeyli kənara çıxaraq sonralar məcazi olaraq həm də böyük uğurlar platforması statusu qazandı. Belə ki, “Çıraq”dan sonra Xəzərdə, AÇG müqavilə sahəsində daha 7 platforma quraşdırıldı. Onlardan 4-ü “Azəri” yatağında, 2-si “Dərinsulu Günəşli”də, 1-i “Qərbi Çıraq”da yerləşir. Bu qurğuların hamısının inşasında və istismarında “Çıraq”ın təcrübəsindən geniş istifadə edilib.

*Ardı 5-ci səh.*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188; Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1219-VQD, 1221-VQD, 1226-VQD nömrəli qanunları) 231.2-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2018-ci il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1254-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1254-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12, maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, № 8, maddə 1697) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4.1-ci bəndə "192.3," rəqəmlərindən sonra "231.2," rəqəmləri əlavə edilsin;

3.2. 4.23-cü bənddə "müvafiq icra hakimiyyəti orqanı" sözləri "orqan (qurum)" sözləri ilə əvəz edilsin və həmin bənddən "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 noyabr 2018-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli fərmanı ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 7.1-ci və 7.2-ci bəndləri aşağıdakı redaksiyada verilsin:

"7.1. Məcəllənin 231.1, 469.3 (avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sərhəd sığorta müqaviləsinə və Azərbaycan Yaşıl Kartı növünə münasibətdə), 479 (Komitənin fəaliyyət istiqamətlərinə uyğun olaraq), 480-505, 507, 509 və 546-cı maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə - Komitənin sədri, onun müavinləri, Komitənin Aparatının Əməliyyat-İstintaq Baş İdarəsinin rəisi, onun müavinləri, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, onun müavini, ərazi və ixtisaslaşdırılmış baş gömrük idarələrinin, gömrük idarələrinin və gömrük postlarının rəisləri və onların müavinləri;

7.2. Məcəllənin 469.3 (avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sərhəd sığorta müqaviləsinə və Azərbaycan Yaşıl Kartı növünə münasibətdə), 484, 487.1.1, 487.1.2, 487.2, 487.3, 488, 490, 493, 499.1.1, 499.1.2 və 500-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə - Komitənin Aparatının Əməliyyat-İstintaq Baş İdarəsinin şöbə (bölmə) rəisləri, ərazi və ixtisaslaşdırılmış baş gömrük idarələrinin idarə, şöbə və bölmə rəisləri, onların müavinləri, gömrük postlarının rəisləri, baş inspektorlar, böyük inspektorlar, müstəntiqlər və təhqiqatçılar.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 noyabr 2018-ci il*

# Bərdə şəhərində Tərtər çayı üzərində körpünün tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Regionların nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi, əhalinin və nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinin təmin edilməsi vacib məsələlərdəndir. Son illərdə Bakı şəhərində və respublikanın digər bölgələrində çoxsaylı nəqliyyat infrastrukturu layihələri, o cümlədən respublika və yerli əhəmiyyətli avtomobil yolları, körpülər tikilərək əhalinin istifadəsinə verilmiş və bu işlər ölkənin inkişaf prioritetlərinə uyğun olaraq davam etdirilməkdədir. Belə ki, bölgə əhalisinin və nəqliyyat vasitələrinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə cari ildə Bərdə şəhərinin şimal və cənub hissələrini birləşdirən Tərtər çayı üzərində qəzalı vəziyyətə düşmüş mövcud körpünün sökülərək yerində yeni körpünün tikintisi işlərinə başlanılmışdır.

Bu istiqamətdə işlərin davam etdirilməsinin vacibliyini əsas götürərək, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bərdə şəhəri ərazisində Tərtər çayı üzərində qəzalı vəziyyətə düşmüş körpünün tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 iyul tarixli 373 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölüşdürülməmiş hissəsinin obyektlər və istiqamətlər üzrə bölgüsü"nün 21-ci bəndində göstərilmiş məbləğin 4,0 (dörd) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 noyabr 2018-ci il*

# *Əli HƏSƏNOV:* "Azərbaycan ərəb-İslam ölkələri ilə əlaqələrin inkişafında maraqlıdır"







Ərəb ölkələrinin aparıcı KİV-i, o cümlədən Birləşmiş Ərəb Əmirliklərinin "Nəbz", "İmarat nyus", "Şarcə24", Misirin "İdaat" saytları, Oman Xəbər Agentliyi, Səudiyyə Xəbər Agentliyi, Səudiyyə Ərəbistanının İƏT UNA agentliyi və digər xəbər portalları bu ölkələrin media nümayəndələrinin Azərbaycana səfərini və səfər çərçivəsində Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovla görüşünü geniş işıqlandırıb. AZƏRTAC xəbər verir ki, Misirin "İdaat" saytı səfər zamanı Əli Həsənovdan alınan müsahibəni yayıb. Müsahibədə Əli Həsənov Azərbaycanın ərəb ölkələri, eləcə də Misir və Səudiyyə Ərəbistanı ilə yaxşı əlaqələrinin olduğunu bildirib. O vurğulayıb ki, Azərbaycan ortaq dini, mədəni və tarixi köklərlə bağlı olduğu ərəb-İslam ölkələri ilə əlaqələri inkişaf etdirməyə önəm verir.

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərdə cərəyan edən prosesləri yaxından izləyir və bəzi üzv ölkələrin üzləşdikləri münaqişələrin, xüsusilə də Fələstin probleminin, Suriya böhranının tezliklə həllinə ümid bəsləyir. Azərbaycan İslam ölkələri ilə iqtisadiyyat, mədəniyyət, idman sahələrində əməkdaşlığı genişləndirmək istəyir. İslam Əməkdaşlıq Təşkilatının bütün tədbirlərində iştirak etməkdə maraqlı olan ölkəmiz BMT-də bir sıra diplomatik təşəbbüslər irəli sürüb, Təhlükəsizlik Şurasına sədrliyi dövründə Suriyada hərbi əməliyyatların dayandırılması və Yaxın Şərqdə sabitliyin bərqərar olunması naminə çıxış yolları təqdim edib. Ərəb-İslam ölkələri ilə turizm sahəsində də sıx əməkdaşlıq etmək istəyən Azərbaycan bu ölkələrdən gələn turistlər, eləcə də sərmayədarlar üçün açıqdır. Azərbaycan, öz növbəsində, ərəb-İslam ölkələrinə də sərmayələr yatırıb.

Azərbaycan Prezidentinin köməkçisi ötən il Səudiyyə Ərəbistanında keçirilmiş "əl-Cənadəriyyə" Mədəniyyət və İrs Festivalında iştirak etdiyini, İki Müqəddəs Ocağın Xadimi, Kral Salman bin Əbdüləziz Al Səudla, Küveyt Əmiri Şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahla və Bəhreynin Kralı Həməd bin İsa Al Xəlifə ilə görüşdüyünü, həmçinin İslam Əməkdaşlıq Təşkilatının mənzil-qərargahında olduğunu xatırladıb. Əli Həsənov Azərbaycanla İslam ölkələri arasında əməkdaşlığın dəstəklənməsi məqsədilə Misir, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrə səfər etdiyini də diqqətə çatdırıb. Prezidentin köməkçisi Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının fəaliyyətini dəstəklədiyini qeyd edib.

Müsahibəsində Əli Həsənov ölkəmizdəki tolerant və multikultural mühit barədə ətraflı məlumat verib. Bildirib ki, əhalisinin əksəriyyəti müsəlmanlardan ibarət olan Azərbaycanda etnik, dini və ya irqi zəmində heç bir münaqişə baş verməyib. Azərbaycan dünyaya tolerantlıq nümunəsi təqdim edə bilib. Ölkəmizdə məscidlərlə yanaşı, kilsələr və sinaqoqlar da fəaliyyət göstərir.

Prezidentin köməkçisi, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunub, Azərbaycanda insan kapitalına sərmayə qoyulmasından, elmə, təhsilə, mədəniyyətə göstərilən diqqət və qayğıdan bəhs edib.

# Prezident İlham Əliyev Cəlilabad-Yardımlı avtomobil yolunun bərpası ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Cəlilabad-Yardımlı avtomobil yolunun bərpası ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, sərəncamda altmış min nəfər əhalinin yaşadığı 59 yaşayış məntəqəsini birləşdirən uzunluğu 72 kilometr olan Cəlilabad-Yardımlı avtomobil yolunun tikintisinin ötən illərdə ayrılmış vəsait hesabına başa çatdırılaraq istifadəyə verildiyi bildirilir. Qeyd edilir ki, son illərdə hava şəraitinin yağmurlu keçməsi ilə əlaqədar yolun ayrı-ayrı hissələrində sürüşmə və qabarma kimi deformasiyaların baş verməsi səbəbindən nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətində çətinliklər yaranmışdır.

Bu istiqamətdə işlərin davam etdirilməsinin vacibliyi nəzərə alınaraq Cəlilabad-Yardımlı avtomobil yolunun bərpası məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin 4 988 000 (dörd milyon doqquz yüz səksən səkkiz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Maliyyə Nazirliyinə göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə isə sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

# Dünya Veteranlar Federasiyasının prezidenti Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıq məktubu ünvanlayıb

Dünya Veteranlar Federasiyasının prezidenti Dan-Viqqo Berqtun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlıq məktubu ünvanlayıb. AZƏRTAC xəbər verir ki, məktubda Dan-Viqqo Berqtun Dünya Veteranlar Federasiyasının oktyabrın 16-19-da Bakıda keçirilmiş tədbirlərdə iştirak edən nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə və diqqətə görə dövlətimizin başçısına minnətdarlıq edir. Dan-Viqqo Berqtun Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yaradılmasının 30 illik yubileyinə həsr olunan tədbirlərin, xüsusilə də Azərbaycanda veteranlara göstərilən yüksək diqqət və qayğının onda dərin təəssüratlar yaratdığını bildirir, bunun Dünya Veteranlar Federasiyasının üzvləri üçün yaxşı nümunə olduğunu vurğulayır. "Bu, Azərbaycana ilk səfərim idi və mən bu səfərdən olduqca məmnun qaldım. Bakıda hökm sürən sabit, xoş mühit məndə çox yaxşı təəssürat yaratdı", - deyə Dan-Viqqo Berqtun məktubunda qeyd edir.

Xatırladaq ki, Dünya Veteranlar Federasiyasının nümayəndə heyəti ötən ay Bakıda Respublika Veteranlar Təşkilatının yaradılmasının 30 illiyi ilə bağlı tədbirlərdə, "Müasir dünyada təhlükəsizlik: qlobal və regional çağırışlar" mövzusunda beynəlxalq konfransda iştirak edib.

# *Hikmət HACIYEV:* "Azərbaycan Prezidentinin rəhbərliyi ilə uğurlu xarici siyasət fəaliyyəti həyata keçirilir"

Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdir müavini Hikmət Hacıyev Azərbaycanın xarici siyasətinin uğurları, eləcə də son günlər aktual olan bir sıra məsələlərlə bağlı AZƏRTAC-ın suallarını cavablandırıb. Müsahibəni təqdim edirik.



**- Yola salmaqda olduğumuz həftə də Azərbaycanın xarici siyasəti baxımından intensiv oldu və dövlət başçısının xarici nümayəndə heyətləri ilə çoxsaylı görüşləri ilə müşayiət edildi. Bu barədə fikirlərinizi bilmək istəyirik.**

- Həftə ərzində ölkəmizə olan səfərlər və dövlətimizin başçısının xarici nümayəndə heyətləri ilə keçirdiyi görüşlər ölkəmizin xarici siyasətinin nə dərəcədə dinamik, çevik və çoxşaxəli olmasının növbəti göstəricisidir. Paytaxt Bakı Fələstinin Asiya qitəsi ölkələrində səfirlərinin toplantısına evsahibliyi etdi və bu xüsusda dövlətimizin başçısı Fələstinin xarici işlər naziri Riad Əl-Malikinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etdi. Nəzərə almaq lazımdır ki, Fələstin məsələsi beynəlxalq gündəlikdə duran ən aktual mövzulardan biridir və ölkəmiz də bu məsələnin həll edilməsinə, fələstinlilərin humanitar problemlərinin aradan qaldırılmasına öz töhfəsini verir. Dövlət başçısı həmçinin Səudiyyə Ərəbistanının daxili işlər nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdü. Ermənistanın Azərbaycana qarşı işğal və təcavüz siyasətinə görə Səudiyyə Ərəbistanının bu ölkə ilə əlaqələri yoxdur. Ümumiyyətlə, ölkəmiz islam həmrəyliyinə sadiqdir və əməli addımlarla islam həmrəyliyinin gücləndirilməsinə öz əsaslı töhfəsini verir.

Azərbaycan və Avropa İttifaqı arasında bu il oktyabrın sonunda keçirilmiş ilk təhlükəsizlik dialoqunun ardınca Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ölkəmizdə səfərdə oldu və Prezident İlham Əliyev tərəfindən qəbul edildi. Avropa İttifaqı Azərbaycanın mühüm tərəfdaşlarından biridir və Aİ-dən olan yüksək vəzifəli rəsmilərdən birinin də dediyi kimi, Azərbaycan sabit, müasir və mötədil siyasət yürüdən ölkədir. Başqa sözlə desək, Azərbaycan Avropa İttifaqı üçün təbii tərəfdaşdır. Azərbaycan və Avropa İttifaqı arasında tərəfdaşlığa dair saziş layihəsinin başa çatdırılması əməkdaşlığın hərtərəfli inkişafına əlavə təkan verəcək.

Dövlət başçısının ABŞ-ın Nəqliyyat Komandanlığının rəhbərinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə ölkəmizin Əfqanıstanda NATO-nun Qətiyyətli Dəstək Missiyasına töhfəsi, NATO üzv ölkələrinə göstərdiyi tranzit və nəqliyyat dəstəyi, ABŞ ilə müxtəlif sahələrdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə olundu.

Bir sözlə, onu deyə bilərik ki, dövlət başçısının rəhbərliyi ilə Azərbaycanın uğurlu xarici siyasət fəaliyyəti həyata keçirilir və ölkəmizin tərəfdaşlıq əlaqələri məzmun və coğrafi baxımdan davamlı surətdə genişlənir.

**- Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar ölkəmizin haqlı və ədalətli mövqeyinin daha da güclənməsi tendensiyası davam edir. Bütün tərəflər status-kvonun qəbuledilməzliyini etiraf edirlər. Bununla bağlı nə deyə bilərsiniz?**

- Xatırlatmaq istərdim ki, 2011-ci ildə "Böyük Səkkizliy"in Dövildə keçirilmiş sammiti çərçivəsində ATƏT-in Minsk qrupunun həmsədr ölkələri dövlət başçıları səviyyəsində verdikləri bəyanatda status-kvonun qəbuledilməz olduğunu vurğulamışdılar. Bu günlərdə ATƏT-in Minsk qrupunun həmsədrlərinin Vyanada ATƏT-in Daimi Şurasında keçirdikləri brifinq əsnasında da status-kvonun qəbuledilməzliyi ABŞ və digər nümayəndə heyətləri tərəfindən bir daha səsləndirildi. Birmənalı olaraq işğala əsaslanan status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Status-kvonun dəyişdirilməsi isə Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını ehtiva edir.

Ermənistan-Azərbaycan münaqişəsinin həllində Azərbaycanın mövqeyi beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə və Helsinki Yekun Aktına əsaslanır.

Yalnız son bir neçə aylıq dövrə nəzər salsaq, Avropa İttifaqı ilə Tərəfdaşlıq Prioritetləri sənədini, NATO-nun Brüssel Sammitinin yekun bəyanatını, Almaniyanın Kansleri və bu ölkənin Xarici İşlər Nazirliyinin, ABŞ-ın yüksək vəzifəli rəsmiləri və Ermənistandakı səfirinin, Belçika Xarici İşlər Nazirliyinin açıqlamalarını, həmçinin İstanbulda keçirilmiş Azərbaycan-Türkiyə-İran və Azərbaycan-Gürcüstan-Türkiyə xarici işlər nazirlərinin üçtərəfli görüşündə qəbul edilmiş bəyanatları qeyd edə bilərik. Ümumiləşdirilmiş şəkildə desək, bu bəyanatlarda Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək ifadə olunur, Dağlıq Qarabağın Azərbaycanın ərazisi olduğu və münaqişənin həll edilməsi üçün Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmalı olduğu vurğulanır.

Azərbaycanın haqlı və ədalətli mövqeyinin dəstəklənməsi ilk növbədə dövlətlərin BMT Nizamnaməsi əsasında öz üzərlərinə götürdükləri öhdəliklərə sadiqliyinin göstəricisidir.

Ermənistan reallığı düzgün qiymətləndirməli və işğal olunmuş Azərbaycan ərazilərindən öz qoşunlarını çıxarmalıdır. Yalnız bu halda münaqişənin həllində irəliləyişin əldə olunması, regionun ehtiyac duyduğu davamlı sülhün təminatı mümkündür.

**- Bu günlərdə Astanada Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) dövlət başçılarının Zirvə toplantısı keçirildi. Sammit Ermənistan üçün növbəti uğursuzluqla başa çatdı. Ermənistanın iddialarına və istəklərinə baxmayaraq, təşkilatın baş katibi postu Ermənistandan alındı. Ermənistan bu postu 2020-ci ilə qədər saxlamağa çalışırdı. Bu məsələ ilə bağlı fikirlərinizi bilmək maraqlı olardı.**

- Təbii ki, bu, KTMT üzv dövlətlərinin qəbul etdiyi qərardır. Azərbaycan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Zirvə toplantısını yaxından izləyib. Sammit nəticəsində qəbul edilmiş sənədlər və yekun bəyanat barədə qeyd götürülüb. Bu qəbildən olan sənədlərdən biri müşahidəçi və tərəfdaş ölkələrin hüquqi statusu barədədir. O ki qaldı Ermənistana, bu ölkənin bütün müstəvilərdə təcrid və küncə sıxılmış vəziyyətdə olması özünü açıq şəkildə nümayiş etdirir.

Nəzərə almaq lazımdır ki, məlum səbəblərə görə Ermənistan istisna olmaqla, Azərbaycanın KTMT-nin bütün üzv dövlətləri ilə çox sıx dostluq və tərəfdaşlıq münasibətləri var. İkitərəfli və çoxtərəfli müstəvilərdə bu əməkdaşlıq daha da genişləndirilir.

# AOK-un 47-ci Baş Assambleyasında Bakının XV Avropa Olimpiya Gənclər Festivalına hazırlığı barədə məlumat verilib

Noyabrın 10-da İspaniyanın Marbella şəhərində Avropa Olimpiya Komitələrinin (AOK) 47-ci Baş Assambleyası işə başlayıb.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə çıxış edən Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov gələn il iyulun 20-28-də Bakıda keçiriləcək Yeniyetmələrin Avropa Olimpiya Festivalına hazırlığına dair təqdimatla çıxış edib. Nazir bildirib ki, yarışlarda iştirak edəcək 3600 idmançının yerləşməsi üçün Atletlər kəndində altı bina nəzərdə tutulub. Atletlərin idmanın 10 növü - atletika, basketbol, velosiped, gimnastika, həndbol, cüdo, güləş, üzgüçülük, tennis və voleybol üzrə mübarizə aparacaqlarını qeyd edən nazir yarışların 12 arenada keçiriləcəyini diqqətə çatdırıb. Azad Rəhimov festivala Avropanın 50 ölkəsinin qatılacağını bildirərək 48 ölkənin nümayəndə heyətlərinin rəhbərlərinin iştiraklarını təsdiqlədiklərini vurğulayıb.

İdman yarışlarının təşkilində mühüm rol oynayan könüllülər haqqında da məlumat verən nazir bu festivala hazırlıq işinə 2500 nəfərin cəlb olunacağını bildirib. Təqdimat mərasimindən sonra iştirakçıların sualları cavablandırılıb. AOK-un 47-ci Baş Assambleyasına noyabrın 11-də yekun vurulacaq.

Qeyd edək ki, "Bakı-2019"un açılış mərasimi gələn il iyulun 21-də "Baku Crystal Hall"da keçiriləcək.

# Dövlət Təhlükəsizliyi Xidmətinin “N” saylı hərbi hissəsində gənc əsgərlərin növbəti qrupu vətənə sədaqət andı içib





Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oğlu Heydər Əliyevin xidmət etdiyi Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) “N” saylı hərbi hissəsində gənc əsgərlərin növbəti qrupu vətənə sədaqət andı içib.



AZƏRTAC xəbər verir ki, DTX-nin “N” saylı hərbi hissəsində gənc əsgərlərin vətənə sədaqət andı içmələrinə həsr olunmuş növbəti təntənəli tədbirin iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad etdilər, abidəsi önünə əklil qoydular.

Sonra döyüş bayrağı sıra meydanına gətirildi.

Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olundu və dövlət himni səsləndirildi.

Daha sonra gənc əsgərlər təntənəli surətdə hərbi and içdilər.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Mədət Quliyev Ali Baş Komandan İlham Əliyevin adından hərbi hissənin şəxsi heyətini və valideynləri təbrik etdi, zabit və əsgərlərə vətəni müdafiə etmək kimi şərəfli və məsuliyyətli xidmətlərində uğurlar arzuladı. Müasir Azərbaycanın banisi ümummilli lider Heydər Əliyevin dövlət müstəqilliyinin qorunmasında göstərdiyi misilsiz xidmətlərdən danışan general-polkovnik Mədət Quliyev qeyd etdi ki, Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə həyata keçirilən uzaqgörən və məqsədyönlü siyasət nəticəsində regionun lider dövləti olan Azərbaycan uğurla inkişaf edir, sarsılmaz xalq-iqtidar birliyi sayəsində ölkəmizin beynəlxalq aləmdə nüfuzu artır, təhlükəsizliyi təmin olunur. Qarşıda ölkəmizin ərazi bütövlüyünün bərpası kimi ən mühüm vəzifənin durduğunu qeyd edən Mədət Quliyev vurğuladı ki, bu məsələdə hər bir Azərbaycan vətəndaşı, o cümlədən Azərbaycan əsgəri üzərinə düşən vəzifələri yüksək səviyyədə icra etməyə borcludur.

Andiçmədən sonra Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçuları və gənc əsgərlər hərbi marşın sədaları altında təntənəli surətdə tribuna önündən keçdilər.

Qeyd edək ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə görülən tədbirlər respublikanın müdafiə qabiliyyətini durmadan möhkəmləndirir, Silahlı Qüvvələrin hərbi-texniki potensialını gücləndirir. Təsadüfi deyil ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasındadır. Bütün bunlar dövlət səviyyəsində ordu quruculuğunda aparılan məqsədyönlü siyasətin nəticəsidir. Ölkəmizdə gənclər arasında hərbi-vətənpərvərlik ruhu da çox yüksəkdir. Müasir Azərbaycan Ordusunda xidmətləri ilə fəxr edən gənclərimiz vətən uğrunda canlarından belə keçməyə hazırdırlar.

# Bakı Kitab Mərkəzində dünya şöhrətli yoqin Sadhquru ilə görüş və kitab təqdimatı olub




Noyabrın 9-da Bakı Kitab Mərkəzində məşhur hindistanlı yoqin və mistik Sadhquru (Caqqi Vasudev) ilə görüş və onun “Mənəvi quruculuq” kitabının təqdimatı keçirilib. Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

AZƏRTAC xəbər verir ki, təqdimat mərasimi Sadhqurunun insanın mənəvi quruculuğuna dair məzmunlu fikirləri ilə yadda qalıb. Hindistanlı yoqin və mistikin fikrincə, dünyada sülh, sevinc içində yaşamaq üçün insanlar çox ciddi çağırışlar edir və sadə olanı tez-tez mürəkkəbləşdirirlər: “Uşaqların bilikləri daha az olsa da, onlar həyatdan zövq ala bilirlər. Bu isə o deməkdir ki, böyüklər öz bilikləri və dünyagörüşləri ilə sevinc üçün daha çox səbəb tapa bilər və həyatdan daha asanlıqla, uşaqlardan ikiqat, üçqat çox zövq ala bilərlər”. Onun sözlərinə görə, insanların keçirdikləri iztirabın iki səbəbi var: yaddaş və sərhədsiz təxəyyül. Yoqin və mistik hesab edir ki, insan dünyanı özünə deyil, özünü dünyaya uyğunlaşdırmalı və harmoniyada yaşamağı bacarmalıdır.




Sadhquru daha sonra auditoriyanın suallarını cavablandırıb. Qeyd edək ki, Azərbaycana ilk dəfə gələn Sadhquru noyabrın 10-da Heydər Əliyev Mərkəzində mühazirə ilə çıxış edib. Mərkəzdə təşkil olunan mühazirə də “Mənəvi quruculuq: gümrahlığın texnologiyaları” mövzusuna həsr ediləcək.

Hindistanın 50 nüfuzlu şəxsinin sırasında olan Sadhquru yoqin, mistik, bestseller müəllifidir, özünü insanların mənəvi və fiziki rifahının yüksəlişinə həsr edib. O, müstəsna xidmətlərinə görə Hindistanın “Padma Vibhuşan” (“Padma Vibhushan”) dövlət mükafatı ilə təltif olunub.

Dərin, təsirli və məntiqli çıxışları Sadhquruya natiq kimi beynəlxalq nüfuz qazandırıb. Mövcud problemlər və dünya məsələlərinə dəqiq, qəti baxışı, insan rifahı mövzusuna öz yanaşması olan Sadhquru bir sıra beynəlxalq forumlarda, o cümlədən BMT-nin mənzil qərargahında əsas, Dünya İqtisadi Forumunda isə mütəmadi çıxışçı olub, TED konfranslarında izləyicilərlə görüşüb. O, Oksford, Stenford, Harvard, Uorton, Yel universitetlərində, Massaçusets Texnologiya İnstitutunda və dünyanın digər qabaqcıl ali təhsil müəssisələrində çıxış edib.

# Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində Dövlət Bayrağı Günü qeyd edilib





Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) Dövlət Bayrağı Gününə həsr olunmuş “Sən yaşa, Azərbaycan!” adlı tədbir keçirilib. “Azərbaycan mədəniyyəti və ədəbiyyatı günləri” çərçivəsində keçirilən tədbirdə “Özbəkistan-Azərbaycan” Dostluq Cəmiyyətinin rəhbərliyi, Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universitetinin, Nəqliyyat Kollecinin müəllim və tələbələri, yerli azərbaycanlılar iştirak ediblər.

Əvvəlcə iştirakçılar Mədəniyyət Mərkəzinin foyesində “Sən yaşa, Azərbaycan!” adlı kitab və fotoşəkillərdən ibarət sərgi ilə tanış olublar. Bu qurumun nəzdindəki “Azərbaycan qızları” rəqs ansamblının üzvləri milli rəqslərimizi ifa ediblər. Özbəkistan Mədəniyyət və Sənət İnstitutunun tələbələri Azərbaycan milli geyimlərini, həmçinin Qarabağ zadəganlarının bəy geyimlərini də nümayiş etdiriblər. Mədəniyyət Mərkəzinin konfrans salonunda Azərbaycanın dövlət himni səsləndirilib.

Tədbiri açan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov müstəqilliyimizin simvolu olan üçrəngli bayrağımız haqqında danışıb, Mədəniyyət Mərkəzinin “Azərbaycan mədəniyyəti və ədəbiyyatı günləri” çərçivəsində həyata keçirdiyi layihələr barədə məlumat verib. Sonra o, iki xalq arasında elm, ədəbiyyat sahələrində fərqlənən Azərbaycan və özbək alimlərinə fəxri diplomlar təqdim edib.

Özbəkistanda səfərdə olan Milli Televiziya və Radio Şurasının sədr müavini, “Kaspi” qəzetinin təsisçisi Sona Vəliyeva dövlət rəmzimiz, istiqlalımızın simvolu olan bayrağımızın tarixi, onun keçdiyi yol barədə danışıb. O, ulu öndər Heydər Əliyev tərəfindən üçrəngli bayrağımızın bərpa edilməsinin müstəqilliyimizə ən böyük töhfə olduğunu vurğulayıb. Tədbirin sonunda Mədəniyyət Mərkəzinin layihəsi əsasında hazırlanan “Azərbaycan, Qarabağ, Sülh və Qələbə üçün oxu” klipi nümayiş etdirilib. Klipdə Özbəkistanın bir sıra musiqi qrupları, ifaçıları, rəqs ansamblları iştirak ediblər.

Vətənpərvərlik, vətən həsrəti hisslərindən, Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarında mədəni irsimizin dağıdılmasından bəhs edən, habelə Azərbaycan-Özbəkistan dostluğunu təbliğ edən klip tamaşaçıların alqışları ilə qarşılanıb.

# Dünya şöhrətli hindistanlı yoqin Heydər Əliyev Mərkəzində mühazirə ilə çıxış edib

Noyabrın 10-da məşhur hindistanlı yoqin Sadhquru (Caqqi Vasudev) Heydər Əliyev Mərkəzində mühazirə ilə çıxış edib.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib.

AZƏRTAC xəbər verir ki, Sadhqurunun izləyiciləri ilə görüşü “Mənəvi quruculuq: gümrahlığın texnologiyaları” mövzusunda olub.

“Mənəvi quruculuq: gümrahlığın texnologiyaları” dərin və davamlı şəxsi transformasiyadan keçmək üçün qədim yoqa elmindən əldə edilən hərtərəfli bir sistemdir. Bu, insanın bədəni, ağlı, duyğuları və enerjisini pik nöqtədə, tam harmoniyada birləşdirmə üsuludur, hər hansı fiziki hazırlıq və ya yoqa haqqında bilik tələb etmir və onun sayəsində asanlıqla istənilən həyat tərzinə inteqrasiya etmək mümkündür.

Sadhqurunun mühazirəsi bədən və emosiyalara, insanın daxili enerjisinə müdrikliklə nəzarət etmək vasitələri barədə maraqlı mülahizələrlə yadda qalıb.

Hindistanlı yoqinin fikrincə, bugünkü cəmiyyət bəşər tarixində ən rahat şəraitdə yaşayan insanlardan ibarətdir. Sadhqurunun sözlərinə görə, insan bəyənmədiyi halları, əslində, özü yaradır. İnsanın düşüncələri onun həyatında müxtəlif təlatümlərə səbəb ola bilər. “İnsanlar on il əvvəl baş vermiş hadisənin iztirabını, eləcə də gələcəkdə gözlənilən hər hansı hadisənin iztirabını indi çəkir. Halbuki indiki vəziyyətdə nə on il əvvəlki, nə də gələcəkdə baş verəcək hadisə mövcud deyil”, - deyən Sadhquru bu iztirabın yaddaş və hüdudsuz təxəyyül kimi mənbələrini göstərib.

“Siz sevincli olanda bu sevinc digərlərinə də sirayət edir. Siz bu zaman başqalarına pozitiv görünürsünüz. Eyni zamanda, əks halda da müvafiq vəziyyətə uyğun hal yaranır”, - deyə Sadhquru vurğulayıb. Yoqin hesab edir ki, insan öz ağlının özünə zərər deyil, fayda verməsinə çalışmalıdır. İnsan dünyanı özünə deyil, özünü dünyaya uyğunlaşdırmalı və harmoniyada yaşamağı bacarmalıdır.

Sadhquru mühazirədən sonra iştirakçıların suallarını cavablandırıb, Bakıda bu auditoriya qarşısında çıxışının və insanlarla ünsiyyətinin ona çox gözəl anlar yaşatdığını bildirib.

Qeyd edək ki, Sadhqurunun Mərkəzin Auditorium zalında etdiyi çıxış çoxsaylı müraciət və istəklər nəzərə alınaraq, digər konfrans zalında da canlı yayımlanıb və burada tamaşaçılar onu böyük monitor vasitəsilə izləyiblər.

Tədbir çərçivəsində Sadhqurunun “Mənəvi quruculuq: gümrahlığın texnologiyaları” adlı kitabının imzalanma mərasimi də olub.






Hindistanın 50 nüfuzlu şəxsinin sırasında olan Sadhquru yoqin, mistik bestseller müəllifidir, özünü insanların mənəvi və fiziki rifahının yüksəlişinə həsr edib. O, bir sıra beynəlxalq forumlarda, o cümlədən BMT-nin mənzil qərargahında əsas, Dünya İqtisadi Forumunda isə mütəmadi çıxışçı olub, TED konfranslarında izləyicilərlə görüşüb. Hindistanlı yoqin Oksford, Stenford, Harvard, Uorton, Yel universitetlərində, Massaçusets Texnologiya İnstitutunda və dünyanın digər qabaqcıl ali təhsil müəssisələrində çıxış edib.



# Azərbaycan parlamenti dövrün yeni inkişaf mərhələsində

Əvvəli 1-ci səh.

Yeni inkişaf mərhələsinin müvafiq tələbləri Milli Məclisin həm mahiyyətcə, həm də struktur cəhətdən yeniləşməsini gündəmə gətirmişdir. Bununla bağlı bəzi qanunvericilik komitələrinin səlahiyyət çərçivələri genişləndirilmiş və əsasən sosial və ictimai sahələri əhatə edən 4 yeni komitə formalaşdırılmışdır ki, bunun da nəticəsində cəmiyyətin bütün təbəqələrini daha çox maraqlandıran məsələlərə dair müzakirəyə çıxarılan qanun layihələrinin daha dərindən araşdırılması və geniş fikir mübadiləsi üçün münbit şərait yaranmışdır. Bu gün artıq Milli Məclisdə 15 qanunvericilik komitəsi daha səmərəli fəaliyyət nümayiş etdirir.

Bu illər ərzində ölkədə uğurla həyata keçirilən siyasi, iqtisadi, hüquqi, sosial islahatların, demokratikləşmə prosesinin hüquqi mexanizmi daha da inkişaf etmiş və təkmilləşdirilmişdir. Beşinci çağırış parlament seçkilərindən sonra, yəni 2015-ci il noyabrın 1-dən bəri Milli Məclisin 80-ə yaxın plenar iclası keçirilmiş, 1300-dək qanunvericilik aktı qəbul edilmişdir. Hər il olduğu kimi, bu dövrdə də hökumətin və Hesablama Palatasının hesabatları və Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) məruzəsi müvafiq komitələrdə geniş müzakirə olunaraq plenar iclaslarda qəbul edilmişdir.

"Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında", "Normativ hüquqi aktlar haqqında" və "Azərbaycan Respublikası Dövlət himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya qanunlarında dəyişikliklər edilmişdir.

Həyata vəsiqə almış 30-dan çox yeni qanunun sırasında "Dini ekstremizmə qarşı mübarizə haqqında", "Lisenziyalar və icazələr haqqında", "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Elm haqqında", "Kredit büroları haqqında", "Nağdsız hesablaşmalar haqqında", "Hərbi vəziyyət haqqında", "Bələdiyyə üzvlərinin etik davranış qaydaları haqqında", "İşsizlikdən sığorta haqqında", "Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında", "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında", "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında", "Peşə təhsili haqqında", "Ələt azad iqtisadi zonası haqqında", "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Məşğulluq haqqında", "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" qanunlar xüsusi əhəmiyyətə malikdir.

Mövcud qanunlara edilən dəyişikliklər, də öz növbəsində, Azərbaycan vətəndaşının bütün həyatını əhatə etməklə ölkə rəhbərliyi tərəfindən aparılan islahatların səmərəliliyinin təmin olunmasını hədəf götürərək ilk növbədə insanların yüksək sosial rifahının, əmin-amanlıq şəraitində demokratik, azad həyat tərzinin təmin olunmasına yönəldilmişdir. Bu baxımdan mülki, inzibati xətalar, ailə, şəhərsalma və tikinti, torpaq, vergi, gömrük, mənzil, miqrasiya, cəzaların icrası, seçki, əmək, ticarət gəmiçiliyi, cinayət, su, meşə və prosessual məcəllələrə edilən vacib dəyişikliklər qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün əsaslı hüquqi zəmin yaradır.

Heydər Əliyev Fondunun Prezidenti, o dövrdə deputat statusunda olan Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Milli Məclis tərəfindən qəbul edilmiş "28 May - Respublika Günü münasibətilə amnistiya elan edilməsi haqqında" 20 may 2016-cı il tarixli qərar böyük humanist dəyərlərə sədaqətin nümunəsidir. Parlamentdə yekdilliklə dəstəklənmiş bu addım nəticəsində 10 mindən çox məhbus azadlığa qovuşmuş, minlərlə ailənin kədəri sevinclə əvəzlənmişdir. Bu qərar beşinci çağırış Milli Məclisin qəbul etdiyi hüquqi aktlar sırasında böyük ictimai əhəmiyyətinə və dəyərinə görə xüsusilə seçilən sənədlərdəndir. Sonrakı dövrdə "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" və "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" qanunlara edilmiş düzəlişlər isə məqsəd aydınlığı və fəaliyyət ardıcıllığı baxımından bu siyasətin məntiqi davamı kimi dəyərləndirilməlidir.

"Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli sərəncamı isə ölkə ictimaiyyətinin böyük marağına səbəb olmuşdur.

Bununla bağlı dövlət başçısının tövsiyəsi və Azərbaycan Respublikasının Konstitusiyasının müddəaları, digər ölkələrin qanunvericilik və məhkəmə təcrübəsi, Avropa Məhkəməsinin presedent hüququ və Konvensiyasının tələbləri nəzərə alınmaqla "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Milli Məclisin qəbul etdiyi qanuna əsasən ümumilikdə 36 cinayətə görə azadlıqdan məhrumetmə cəzasının hədləri aşağı salınmış və Cinayət Məcəlləsinə 300-ə qədər dəyişiklik edilmişdir. Buraya əsasən humanistləşdirmə, liberallaşdırma, azadlıqdan məhrumedilmə sanksiyalarının azaldılması istiqamətində maddələr və bəndlər daxildir. Belə ki, 18 cinayət az ağır cinayətlər kateqoriyasından böyük cinayətlərə aid olmayan kateqoriyaya, 4 cinayət isə ağır kateqoriyadan az ağır kateqoriyaya keçirilmiş, 13 sanksiyada azadlıqdan məhrumetmə cəzasının hədləri dəyişdirilmişdir. Cinayət tərkiblərinin Cinayət Məcəlləsindən çıxarılması yolu ilə bəzi əməllər dekriminallaşdırılmışdır. Əvvəllər cinayət hesab edilən bəzi əməllərə bu qanunun qəbulundan sonra yalnız İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinə əsasən hüquqi qiymət verilir.

Ölkənin ədliyyə tarixinə əlamətdar gün kimi düşmüş bu tarixi addım dövlət başçısının humanist siyasətinin növbəti təzahürüdür. Bu sənəd ölkəmizdə davamlı şəkildə aparılan genişmiqyaslı məhkəmə-hüquq islahatlarının tərkib hissəsi, eyni zamanda, cinayət təqibinin və cəzaların icrası sahəsində yeni mərhələnin başlanmasının əsası kimi dəyərləndirilir. Belə ki, ümumilikdə cəza siyasətinin humanistləşdirilməsi sahəsində uzun müddətdən bəri, yəni 2000-ci ildən etibarən tədbirlərin görülməsinə baxmayaraq, məhkəmələr cinayət törətmiş şəxslər barəsində bir çox hallarda həbslə əlaqədar qətimkan tədbirinin seçilməsinə və azadlıqdan məhrumetmə ilə bağlı cəzanın tətbiqinə üstünlük verirdilər. Qüvvədə olan cinayət qanunvericiliyində həm obyektiv, həm də subyektiv səbəblərdən bir sıra çatışmazlıqlar mövcud idi. Buna misal olaraq, demək olar ki, müvafiq maddələrdə azadlıqdan məhrumetmə ilə yanaşı, yüksək məbləğlərdə cərimə cəzası da tətbiq olunurdu. Dəyişikliklərdən əvvəl, eyni zamanda, müəyyən cəzaların icrası da mümkünsüz olurdu, belə olan halda məhkəmələr əsasən azadlıqdan məhrumetmə cəzasının təyin edilməsinə üstünlük verirdilər.

Statistika göstərir ki, qanun qüvvəyə mindikdən sonra həbs edilən şəxslərin sayı xeyli azalmışdır. İctimaiyyət üçün böyük təhlükə törətməyən cinayətlərə görə lüzumsuz yerə həbs edilmənin qarşısının alınması istiqamətində tədbirlər də öz bəhrəsini verir. Bu nəticə həm də ali hakimiyyətin hər üç qolu səviyyəsində - qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin birgə, unison fəaliyyəti sayəsində hədəflərin düzgün müəyyənləşdirilməsinin bariz nümunəsidir.

Bu illər ərzində Azərbaycan parlamenti demokratiya və vicdan azadlığından tutmuş sosial-iqtisadi, humanitar və inzibati məsələlərə qədər, bir sözlə, həyatın bütün sahələrinə dair digər mövcud qanunların hüquqi uyğunlaşdırılması və təkmilləşdirilməsi işinə də əhəmiyyətli töhfələr vermişdir. Ölkə rəhbərliyi tərəfindən müəyyənləşdirilmiş strateji yol xəritələrinin hədəflərini, o cümlədən həyata keçirilən pensiya islahatının, kənd təsərrüfatının, meliorasiyanın, orta və kiçik sahibkarlığın inkişafına yönəlmiş genişmiqyaslı tədbirlərin, humanitar sahələrdə təklif olunan xidmətlərin yüksək keyfiyyətinin, ölkənin hərbi qüdrətinin artırılması istiqamətində görülən böyük işlərin səmərəsini təmin etmək baxımından müvafiq qanunlara edilmiş dəyişikliklər hüquqi çəkisinə görə ön sıradadır. Son 3 il ərzində dini etiqad azadlığı, siyasi partiyalar, qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar), kütləvi informasiya vasitələri, sərbəst toplaşmaq azadlığı, torpaqların dövlət ehtiyacları üçün alınması, ekoloji təmiz kənd təsərrüfatı, ətraf mühitin mühafizəsi, tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması, əmək pensiyaları, banklar, sığorta fəaliyyəti, ipoteka, sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi, korrupsiyaya qarşı mübarizə, polis, prokurorluq, məhkəmələr, dövlət təhlükəsizliyi, vergi, gömrük, miqrasiya orqanları, irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı, mədəniyyət, turizm, bədən tərbiyəsi və idman, şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər, məişət zorakılığının qarşısının alınması, uşaq hüquqları, vəkillər və vəkillik fəaliyyəti, Azərbaycan Respublikası Milli Məclisi deputatının və bələdiyyələrin statusu haqqında və digər məsələlərlə bağlı Azərbaycan Respublikasının qanunlarında edilmiş dəyişikliklər məhz bütün bu fəaliyyət istiqamətlərinin mükəmməl hüquqi bazasının formalaşmasına xidmət edir.

Beşinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinin müzakirəsinə 20-dək konvensiya, saziş və digər beynəlxalq əhəmiyyətli sənəd təqdim olunmuş və qəbul edilmişdir. Fikrimcə, bunlardan Birləşmiş Millətlər Təşkilatının malların beynəlxalq alqı-satqı müqavilələrinə dair Konvensiyasına qoşulmaq barədə, Azərbaycan Respublikasına Şanxay Əməkdaşlıq Təşkilatının dialoq üzrə tərəfdaşı statusunun verilməsi haqqında Memorandumun təsdiq edilməsi barədə, Azərbaycan Respublikası ilə QİÇS, Vərəm və Malyariya ilə Mübarizə üzrə Qlobal Fond arasında Çərçivə Sazişinin təsdiq edilməsi haqqında, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının "Paris Sazişi"nin təsdiq edilməsi haqqında, Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılmasına, axtarışına, həbsinə, müsadirəsinə və terrorçuluğun maliyyələşdirilməsinə dair Avropa Şurası Konvensiyasının təsdiq edilməsi haqqında qanunların və Avropa Parlamenti ilə Azərbaycan Respublikasının Milli Məclisi arasında əməkdaşlıq məsələləri haqqında qərarın əhəmiyyəti xüsusi vurğulanmalıdır.

Ötən 3 ilin yekununa dair fikir söyləyərkən qürur hissi ilə həm də onu qeyd etmək istərdim ki, parlamentin intellektual səviyyəsi qanunyaratma və qanunvericilik sahəsində qarşıya qoyulan hər bir mürəkkəb vəzifəni yerinə yetirməyə imkan verir. Bu gün Milli Məclisdə təmsil olunan 10 deputat AMEA-nın həqiqi və ya müxbir üzvü, 14 deputat xarici ölkələrin elmlər akademiyalarının üzvləridir. Millət vəkillərindən 32-si elmlər doktoru, 27-si isə müxtəlif elmi sahələr üzrə fəlsəfə doktorudurlar. Ötən ilin fevral ayında Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti kimi ali vəzifəyə təyin olunması bir tərəfdən onun özünün şəxsi işgüzar və yüksək mənəvi keyfiyyətləri ilə bağlıdırsa, digər tərəfdən, hesab edirəm ki, həm də millət vəkili kimi ölkə parlamentində təmsil olunan ictimai-siyasi xadimin nüfuzundan irəli gəlmiş qərardır. Yeri gəlmişkən qeyd etmək istərdim ki, beşinci çağırış dövründə parlamentdən icra strukturlarında yüksək və mühüm siyasi vəzifələrə irəli çəkilən deputatların sayı əvvəlki illərə nisbətən daha çox olmuşdur. Bu, ölkə Prezidentinin Milli Məclisin fəaliyyətinə verdiyi böyük dəyərin və millət vəkillərinə bəslədiyi inamın təzahürüdür.

Parlament milli qanunvericiliyi Avropa hüquq normalarına və standartlarına uyğunlaşdırmaq, problemlərin açıq müzakirəsini aparmaq yolu ilə demokratik təsisatları möhkəmləndirir, söz, mətbuat, vicdan, birləşmək, sərbəst toplaşmaq və digər siyasi azadlıqların reallaşmasına, qanunun aliliyinin bərqərar edilməsinə zəmin yaradır. Təcrübə göstərir ki, parlament demokratiya və siyasi mədəniyyət məktəbi olaraq, yalnız cəmiyyətdə mövcud olan siyasi qüvvələrin və cərəyanların bütün spektrini əks etdirdiyi halda ictimai fikrə, insanların düşüncəsinə təsir göstərə bilir. Ona görə də çoxpartiyalılıq, plüralizm, qanunun aliliyi prinsipləri ötən bu dövrdə də demokratik dəyərlərə həmişə sadiqlik nümayiş etdirən Azərbaycan parlamentinin praktiki fəaliyyətində özünü doğrultmuşdur. Milli Məclisdəki deputat mandatlarının əksəriyyətinin cəmiyyətin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasına mənsub olmasına rəğmən ölkəmizdə ictimai fikrə təsir göstərmək imkanlarına malik digər siyasi təşkilatlar - 12 partiya parlamentdə təmsil olunmuşdur.

Milli Məclis tərkibində gender bərabərliyinin təmin olunması baxımından da nümunəvi parlamentarizm ənənələrini uğurla davam etdirməkdədir. Qadın deputatların sayı hər növbəti seçkidə artaraq bu gün 20 nəfər, yəni 17 faiz təşkil edir ki, bu da hətta bir çox Qərb ölkələri ilə müqayisədə yüksək göstəricidir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev Konstitusiyada təsbit edilmiş qanunvericilik təşəbbüsü hüququna əsaslanaraq müasir dünya standartlarına uyğun qanun layihələrinin hazırlanmasını və parlamentə təqdim olunmasını təmin edir. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, parlamentin qəbul etdiyi layihələrin böyük əksəriyyəti dövlət başçısının təşəbbüsü ilə müzakirəyə çıxarılır. Düşünürəm ki, bu, ölkəmizdə ali qanunvericiliklə ali icra hakimiyyətinin nümunəvi tandeminin, yüksəksəviyyəli parlament-Prezident münasibətlərinin göstəricisidir.

Qanunyaratma və qanunvericilik məsələlərinin həllində həmişə müsbət dinamika ilə inkişaf yolunda olan Milli Məclis eyni zamanda ölkəmizdə və beynəlxalq aləmdə baş verən mühüm siyasi hadisələrə münasibətini bildirir, xüsusilə də Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, yalançı erməni təbliğatının ifşa edilməsi istiqamətində zəruri tədbirlər görür. 2017-ci ildə Xocalı soyqırımının 25 illiyi və 2018-ci ildə azərbaycanlıların soyqırımının 100 illiyi ilə bağlı Milli Məclisin qərarları ölkə rəhbərliyinin bu tarixi faciələrə verdiyi siyasi qiymətin parlament səviyyəsində təsdiqidir.

Son zamanlar beynəlxalq təşkilatlarda təmsilçilik Azərbaycan üçün daha çox əhəmiyyət kəsb etməyə başlamışdır. Beşinci çağırış dövründə Milli Məclisin beynəlxalq ikitərəfli və çoxtərəfli əlaqələri müsbət dinamika ilə inkişaf etmişdir. Məlum olduğu kimi, Milli Məclis ölkəmizin üzv olduğu beynəlxalq təşkilatların parlament məclislərinin, o cümlədən Avropa Şurası Parlament Assambleyasının, ATƏT-in Parlament Assambleyasının, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin, MDB Parlamentlərarası Assambleyasının, İslam Konfransı Təşkilatı Parlament Məclisinin və digər nüfuzlu təşkilatların üzvüdür. Biz dövlətimizin müxtəlif məsələlərə dair mövqeyini beynəlxalq aləmə çatdırmaq üçün bu vasitədən də səmərəli istifadə edirik. Bundan əlavə, beynəlxalq təşkilatların işində bərabərhüquqlu üzv kimi yaxından iştirak edərək bütün dünya xalqlarının qarşısına çıxan çağırışların, təhdidlərin nəzərə alınması üçün səylərin birləşdirilməsi prosesində fəal iştirak edirik. Bu baxımdan Azərbaycan parlamentinin fəaliyyəti xarici siyasətimizdə mühüm yer tutur. Millət vəkillərimizin AŞ PA, ATƏT, QDİƏT, İƏT, GUAM kimi nüfuzlu beynəlxalq təşkilatların rəhbər orqanlarında əhəmiyyətli vəzifələrə seçilməsi eyni zamanda Azərbaycan dövlətinə və parlamentinə böyük hörmətin ifadəsidir. AVRONEST Parlament Assambleyasının ikili standartlardan doğan qərəzli yanaşmaları nəticəsində pozulmuş münasibətlərin və Avropa Parlamentində Azərbaycan nümayəndə heyətinin fəaliyyətinin bərpası da, fikrimcə, hər iki tərəf üçün eyni dərəcədə uğur sayıla biləcək nailiyyətdir.

Bu illər ərzində ayrı-ayrı ölkələrin qanunvericilik orqanları ilə əməkdaşlığın və qarşılıqlı əlaqələrin genişləndirilməsinə xüsusi diqqət yetirilmişdir. Bu məqsədlə parlamentlərarası əməkdaşlığın müxtəlif formalarından istifadə olunur. Bu gün Milli Məclisdə 80-dən çox xarici ölkənin parlamentləri ilə əlaqələr üzrə işçi qrupları uğurla fəaliyyət göstərir. 30-dək xarici ölkənin hökumətləri ilə strateji əməkdaşlıq, qarşılıqlı hüquqi yardım, iqtisadi, inzibati, səhiyyə, mədəniyyət, ekologiya və bir çox digər sahələr üzrə sazişlər və memorandumlar ratifikasiya olunmuşdur.

Bu dövr ərzində Milli Məclisin rəhbərliyi, deputatlar və parlament aparatının əməkdaşları 65-dən çox ölkəyə 300-dək səfər ediblər. Nümayəndə heyətlərimiz 12 ölkədə keçirilmiş prezident və parlament seçkilərini müşahidə ediblər. Bu sırada Milli Məclisin Sədri Oqtay Əsədovun 10-dan çox xarici ölkəyə, xüsusilə Türkiyə, Rusiya, Gürcüstan, Çin, Koreya, İran, Belarusa və digər ölkələrə etdiyi 15-dək rəsmi və işgüzar səfərləri Azərbaycanla bu dövlətlər arasında qarşılıqlı münasibətlərin inkişafına əhəmiyyətli töhfə vermişdir.

Əvvəlki illərdə olduğu kimi, son dövrdə də Milli Məclis ən müxtəlif mövzular ətrafında çeşidli beynəlxalq və yerli əhəmiyyətli konfransların, görüşlərin, "dəyirmi masa"ların, dinləmələrin və digər tədbirlərin keçirildiyi bir məkan olmuşdur. 2016-cı ildən bəri 70-dək ölkədən 300-dən çox xarici nümayəndə heyəti, 30-dək beynəlxalq təşkilat və xarici ölkələrin qanunvericilik orqanlarının rəhbərləri Azərbaycan parlamentinin qonağı olmuşlar. Onlardan 110-dək nümayəndə heyəti Milli Məclisin Sədri səviyyəsində qəbul edilmişlər.

Parlamentdə 25-dək beynəlxalq təşkilatın, o cümlədən AŞ PA Miqrasiya, qaçqınlar və məcburi köçkünlər komitəsinin, QDİƏT-in Mədəniyyət, təhsil və sosial məsələlər üzrə komitəsinin, Sosial məsələlər Sağlamlıq və davamlı inkişaf komitəsinin, AVRONEST PA-nın Sosial məsələlər, təhsil, mədəniyyət və vətəndaş cəmiyyətləri üzrə komitəsinin, NATO PA-nın İqtisadiyyat və təhlükəsizlik komitəsinin Keçid və inkişaf alt-komitəsinin nümayəndələri ilə görüşlər keçirilmişdir. Azərbaycan Respublikasının Milli Məclisi və Rusiya Federasiyasının Federal Məclisi ilə əməkdaşlıq üzrə parlamentlərarası komissiyanın XIV iclası, ATƏT Parlament Assambleyasının İpək Yoluna Dəstək Qrupunun təşəbbüsü ilə reallaşmış beynəlxalq konfrans, Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin XV iclası, Avropa Mühafizəkarlar və İslahatçılar Alyansının Bakı sammiti, TürkPA ilə "Kadr məsələləri şöbəsi və ümumi şöbənin iş prinsipləri" mövzusunda təcrübə mübadiləsi proqramı çərçivəsində müzakirələr aparılmışdır.

2018-ci ilin sentyabrında NATO Parlament Assambleyasının İqtisadiyyat və Təhlükəsizlik komitəsinin Keçid və inkişaf alt-komitəsinin üzvlərindən ibarət nümayəndə heyətinin (İqtisadiyyat və Təhlükəsizlik Komitəsi) Azərbaycana səfəri zamanı Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iştirakı ilə Azərbaycanın xarici və regional siyasəti, Yaxın Şərqdə və Mərkəzi Asiyada təhlükəsizlik və sabitlik, Azərbaycanın iqtisadi və daxili çağırışları, Azərbaycanın enerji siyasəti, Qafqazda və Mərkəzi Asiyada enerji təhlükəsizliyi ilə bağlı mövzular diqqət mərkəzində olmuşdur.

Hər il Milli Məclisin İnsan hüquqları komitəsinin tədbirlər planında nəzərdə tutulan 18 iyun - Azərbaycan Respublikasında İnsan Hüquqları Günü ilə əlaqədar artıq ənənə şəklini almış dinləmələrin keçirilməsi demokratik dəyərlərin, söz və vicdan azadlığının bərqərar olması üçün respublikada görülən işlər barədə ölkə ictimaiyyətinin məlumatlandırılması və bu sahədə mövcud olan çatışmazlıqların dəf edilməsi üçün irəli sürülən təkliflərin müzakirəsi baxımından çox əhəmiyyətlidir.

2015-ci il dekabrın 24-də dövlət nümayəndələrinin, deputatların, vətəndaş cəmiyyəti təmsilçilərinin və mətbuat işçilərinin iştirakı ilə Milli Məclisdə keçirilmiş İnsan Hüquqları üzrə Birgə İşçi Qrupun növbəti iclasında söylənilən fikir və rəylər dövlətimizin insan haqlarına, qanunun aliliyinə və demokratiyanın inkişafına verdiyi önəmin təsdiqidir. Bu istiqamətdə Azərbaycan cəmiyyəti birləşmək əzmindədir və bu məram Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılmış işçi qrupun fəaliyyətində özünü bariz şəkildə göstərir.

Ölkəmizdə uşaq hüquqlarının qorunmasına xüsusi önəm verilir. Müstəqillik dövründə milli qanunvericiliyimiz bu sahədə böyük inkişaf yolu keçib, ildən-ilə təkmilləşib. Azərbaycan parlamenti cəmiyyətdən gələn təşəbbüslərə daim diqqətlə yanaşır və hər zaman öz fəaliyyətində bu məsələlərlə bağlı hüquqi bazanın zənginləşdirilməsində beynəlxalq təcrübəni nəzərə alır. 2016-cı ilin aprel ayında İnsan hüquqları komitəsi, Hüquq siyasəti və dövlət quruculuğu komitəsi və UNICEF-lə birgə "Yetkinlik yaşına çatmayanların ədalət mühakiməsinə dair qanunvericiliyin təkmilləşdirilməsi" mövzusunda Milli Məclisdə təşkil edilmiş "dəyirmi masa" məhz bu problemləri əhatə etmişdir. 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə "Mənim səsim - mənim hüquqlarım: parlament müzakirəsi" mövzusunda keçirilmiş tədbirlər də bu istiqamətdə nailiyyətlərin əldə olunmasına xidmət edir və təcrübə göstərir ki, pozitiv nəticələr verir. 2017-ci ildə deputatların, aidiyyəti dövlət qurumlarının və qeyri-hökumət təşkilatlarının və Birləşmiş Millətlər Uşaq Fondu Azərbaycan Nümayəndəliyinin iştirakı ilə Milli Məclisdə keçirilmiş tədbir və UNICEF-in Azərbaycan Nümayəndəliyi ilə "Uşaqlar üçün effektiv qanunvericilik: Milli Məclis UNICEF əməkdaşlığı" mövzusunda aparılmış müzakirələr uşaqların cəmiyyətə inteqrasiyasına və uşaq hüquqlarının təbliğinə həsr olunmuşdur.

Ötən il mayın 31-dən iyunun 2-dək Milli Məclisdə Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) Sosial məsələlər, sağlamlıq və davamlı inkişaf üzrə komitəsinin Uşaqlar üzrə alt-komitəsinin "Rəqəmsal mühitdə uşaqların qorunması, bilik və bacarıqlarının artırılması" mövzusunda parlament seminarının və iclasının Bakıda keçirilməsi, bu sahədə beynəlxalq təşkilatlarla, həmçinin AŞ PA ilə yaxından əməkdaşlıq edən Azərbaycanda uşaq hüquqlarının müdafiə olunması və onların zərərli informasiyadan qorunması kimi vacib məsələlərə verilən xüsusi önəmin ifadəsidir.

Milli Məclis öz fəaliyyətində qadın hüquqlarına və gender bərabərliyi məsələsinə həssaslıq nümayiş etdirir. Beşinci çağırış dövründə bu istiqamətdə Ailə, qadın və uşaq məsələləri komitəsinin təşkilatçılığı ilə bir sıra tədbirlər həyata keçirilmişdir. AŞ PA-nın "Zorakılıqdan azad qadınlar" Parlament Şəbəkəsinin "Qadınların səlahiyyətlərinin genişləndirilməsində və qadınlara qarşı zorakılıqla mübarizədə parlamentarilərin rolu" mövzusunda seminarı, Hüquq siyasəti və dövlət quruculuğu komitəsi ilə birgə "Məişət zorakılığı ilə mübarizə sahəsində fəaliyyət planı"nın müzakirəsi ilə bağlı təşkil olunmuş və hökumət nümayəndələrinin, BMT Qadın Fondunun və Əhali Fondunun, ölkəmizdəki bir sıra QHT-lərin, o cümlədən Gənc Hüquqşünaslar Birliyinin təmsilçilərinin iştirakı ilə keçirilmiş "dəyirmi masa" və "Ailə instututunun formalaşmasında adət-ənənələrimiz" mövzusunda keçirilmiş dinləmələr respublika ictimaiyyətinin böyük marağına səbəb olmuşdur.

Əhalinin sosial rifahı, məşğulluq məsələləri ölkə rəhbərliyinin insan amilinə söykənən daxili siyasətinin əsas sütunlarından biridir və Milli Məclisin diqqət mərkəzində saxladığı məsələlər sırasındadır. Azərbaycan Prezidentinin təşəbbüsü və müvafiq sərəncamına əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində sosial sahədə "ASAN xidmət"in analoqu olan "Dayanıqlı və Operativ Sosial Təminat" (DOST) sisteminin qurulması və hüquqi bazasının möhkəmləndirilməsi ilə əlaqədar oktyabrın 17-də Milli Məclisin Əmək və sosial siyasət komitəsində keçirilmiş dinləmələr parlamentin bu siyasətə və ölkəmizdə sosial sahədə aparılan islahatlara verdiyi dəstək nəticəsində reallaşmışdır.

Dünyanın 142 ölkəsinin üzv olduğu BMT-nin Əlillərin hüquqları haqqında Konvensiyasına qoşulmuş Azərbaycanda fiziki qüsurlu insanların cəmiyyətə inteqrasiyasını sürətləndirmək, onların iş imkanlarını genişləndirmək məqsədilə ardıcıl işlər görülür. Milli Məclis tərəfindən qəbul edilən müvafiq qanunlarda fiziki qüsurlu insanların hüquqları ilə bağlı maddələr yer almışdır və bu hədəflərə çatmaq üçün bütün mümkün vasitələrdən istifadə olunur. 2016-cı ildə Milli Məclisdə "Şərq nağılı" - Əlil gənclərin Birinci Beynəlxalq Yaradıcılıq Festivalı çərçivəsində keçirilmiş tədbir buna misaldır.

Parlamentin Gənclər və idman komitəsinin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən bir sıra tədbirlər ölkə rəhbərliyinin gənclər siyasətinin mahiyyətini əks etdirməklə Azərbaycanda gənclər və idman siyasətinin inkişaf perspektivlərinin müzakirəsi və gənclər təşkilatlarının beynəlxalq arenaya fəal şəkildə çıxması üçün daha geniş imkanlar açmışdır. Ölkədə fəaliyyət göstərən gənclər təşkilatları, müxtəlif idman federasiyaları və assosiasiyaların nümayəndələri, Azərbaycanın idman tarixində yüksək nailiyyətlərə imza atmış idmançıların iştirakı ilə keçirilmiş tədbirlərin, 2 fevral - Gənclər Günü münasibətilə Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin "İdarəetmədə islahatlar və gənclik" layihəsi çərçivəsində Milli Məclisdə gənclərlə görüşün, YAP Gənclər Birliyinin təşkilatçılığı ilə 28 may - Respublika Gününə həsr olunmuş və Beynəlxalq Gənc Demokratlar Birliyi - IYDU, Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransı - ICAPP və Avropa Demokrat Gənclər Birliyi - DEMYC kimi tanınmış beynəlxalq gənclər təşkilatlarının iştirak etdiyi "Gənclik və qlobal çağırışlar" adlı konfransın ruhu da məhz bu məqsədlərdən bəhrələnmişdir.

2015-2018-ci illər ərzində bu səpkidə ümumilikdə 10-dək tədbir reallaşmışdır.

Bu dövr ərzində Milli Məclisin Səhiyyə komitəsinin təşkilatçılığı və ölkənin ən iri tibb müəssisələrinin tanınmış sahə mütəxəssislərinin, Səhiyyə Nazirliyinin nümayəndələrinin, KİV təmsilçilərinin iştirakı ilə keçirilmiş Avropa Parlament Forumu və BMT-nin Əhali Fondu ilə birlikdə "Azərbaycanda ana sağlamlığı və ailə hüquqlarının təşviqinin milli qanunvericilik çərçivəsində gücləndirilməsi" mövzusunda "dəyirmi masa", Əhali artımı və İnkişaf üzrə Avropa Parlament Forumu və BMT-nin Əhali Fondu ilə birlikdə təşkil olunmuş müzakirələr, Avropa Şurası Parlament Assambleyasının Sosial məsələlər, sağlamlıq və davamlı inkişaf üzrə komitəsinin plenar və əlaqədar iclasları, "Qlobal çağırışlar və öhdəliklər: Azərbaycanda vərəmlə mübarizə" mövzusunda və "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" qanunun təkmilləşdirilməsinə dair dinləmələr səhiyyə sahəsində milli qanunvericiliyin təkmilləşdirilməsinə yardım edir.

Ardı 5-ci səh.

# Azərbaycan parlamenti dövrün yeni inkişaf mərhələsində

*Əvvəli 4-cü səh.*

Hər il olduğu kimi, dövlət başçısının parlamentin müzakirəsinə təqdim etdiyi büdcə layihələri ölkə ictimaiyyətinin ən çox maraq göstərdiyi məsələlərdəndir. Beşinci çağırış Milli Məclisin fəaliyyəti postneft dövrünün başlanğıc mərhələsinə təsadüf etdiyi üçün yaranmış səciyyəvi sosial-iqtisadi proseslərin daha çevik və səmərəli formada tənzimlənməsi zərurətini ortaya qoymuşdur. Bu mənada ölkənin sosial-iqtisadi və maliyyə proqramı olan büdcə layihəsinin daha ətraflı və dərindən öyrənilməsi, təkliflərin mahiyyəti üzrə araşdırılması, proqnozların real imkanlar baxımından daha diqqətli təhlili bu illərdə xüsusilə aktual olmuşdur. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin aparıcılığı və bütün digər komitələrin, dövlət qurumlarının nümayəndələrinin cəlb edilməsi ilə layihələrin gərgin müzakirələrlə müşayiət olunması, düşünürəm ki, ölkə rəhbərliyi və hökumətlə yanaşı, həm də parlamentin bu yöndə göstərdiyi fəaliyyətin nəticəsidir.

Ümumiyyətlə isə, ciddi iqtisadi və siyasi arqumentlərlə əsaslandırılaraq təsdiq edilmiş büdcənin sonrakı mərhələlərdə özünü doğrultması və ölkənin iqtisadi cəhətdən davamlı inkişafının təmin olunması onu göstərir ki, qarşıya qoyulmuş hədəflər və prioritetlər real olaraq düzgün müəyyənləşdirilmişdir və strateji məqsədlərə nail olmaq üçün seçilmiş yol doğrudur.

BMT tərəfindən hazırlanmış "2030 - Dayanıqlı İnkişaf Məqsədləri" adlı layihə çərçivəsində BMT ilə birgə "Dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında parlamentlərin rolu" mövzusunda 2017-ci ildə keçirilmiş konfransda məhz bu məsələlərin təhlilinə geniş yer ayrılmışdır.

Son illər ölkədə kənd təsərrüfatına və ərzaq təhlükəsizliyinin təmin olunmasına artan diqqət bütün səviyyələrdə bununla bağlı fəaliyyətin canlandırılmasını şərtləndirir. Azərbaycan Respublikası Milli Məclisi də bu mənada istisna deyil və bu istiqamətdə qanunvericiliyin təkmilləşdirilməsinə töhfə verə biləcək bütün təşəbbüsləri həvəslə dəstəkləyir. Bu il parlamentdə Aqrar siyasət komitəsinin təşkilati dəstəyi və Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin iştirakı ilə "Torpaqların elektron kadastr uçotu yekunlaşan rayonlarda görülən işlərin nəticələri və təhlili" barədə təqdimat keçirilmiş, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası, İqtisadiyyat Nazirliyi və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) təşkilati dəstəyi ilə "Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) həyata keçirilməsində potensialların artırılmasına dəstək" mövzusunda konfrans təşkil olunmuşdur.

Beşinci çağırış dövründə Azərbaycan Prezidentinin təbii ehtiyatlar, energetika və ekologiya məsələləri ilə bağlı parlamentdə müzakirə üçün təqdim etdiyi təkliflərə Milli Məclis tərəfindən dəstəyin ifadəsi bu məsələlərə dair müsbət rəylərdə öz əksini tapır. "Azəri", "Çıraq", "Günəşli", "Muradxanlı", "Cəfərli", "Ümid", "Qarabağ" neft yataqlarının və "Babək" perspektiv strukturunun daxil olduğu dəniz blokunun yatağının, "Əşrəfi-Dan ulduzu-Aypara" sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü ilə bağlı sazişlərin, Azərbaycan hökuməti ilə Türkiyə Respublikasının hökuməti arasında Transanadolu təbii qaz sisteminə dair Anlaşma Memorandumunun, İran İslam Respublikası hökuməti ilə Araz çayı üzərində "Xudafərin" və "Qız qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismarı, energetika və su ehtiyatlarından istifadə sahəsində əməkdaşlıq haqqında sazişin hazırlanması prosesində parlamentin müvafiq komissiyası fəal iştirak etmişdir. Ələt azad iqtisadi zonası haqqında Azərbaycan Respublikası Qanununun hüquqi aspektlərinin müəyyənləşdirilməsində komitənin bir çox səmərəli təklifləri nəzərə alınmışdır.

Neft müqavilələrinin, enerji və nəqliyyat sahəsində Avropa ilə əməkdaşlığın dərinləşdirilməsində qanunvericilik təminatının müstəsna əhəmiyyəti var. 2018-ci ilin may ayında Milli Məclisdə keçirilən Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin XV iclasında "İqtisadi əməkdaşlıq: enerji və nəqliyyat" mövzusu ətrafında aparılan müzakirələrdə bu fikir dominant səciyyə daşımışdır. Azərbaycanla Avropa İttifaqı arasında iqtisadi əməkdaşlığın mühüm yeri olduğu vurğulanmış və ölkəmizin neft-qaz ehtiyatlarının Avropanın enerji təminatında əhəmiyyətli rolu iştirakçılar tərəfindən bir daha etiraf edilmişdir.

Milli Məclisdə həm insan alverinə qarşı mübarizə, həm də miqrasiya məsələlərinin tənzimlənməsi ilə bağlı beynəlxalq standartlara uyğun mükəmməl qanunvericilik bazası yaradılmışdır. Bu yaxınlarda "İnsan alveri və miqrant qaçaqçılığına çoxtərəfli yanaşmalar: beynəlxalq və milli qanunvericilik, operativ baza" mövzusunda keçirilmiş konfrans da beynəlxalq transmilli mütəşəkkil cinayətlərin araşdırılması və insan alverinə məruz qalan şəxslərin müdafiəsi ilə bağlı beynəlxalq və regional müzakirələri genişləndirmək, insan alverinə və miqrantların qaçaqçılığına qarşı çoxsaylı problemlərə kompleks və inteqrasiya olunmuş çoxsahəli yanaşmaları təşviq etmək baxımından parlamentin fəaliyyətinə əhəmiyyətli töhfədir.

Azərbaycan Ordusunun qüdrətinin nümayişinə çevrilmiş, xalq-ordu birliyinin təcəssümü kimi Qarabağ savaşı tarixinə düşmüş 2016-cı il Aprel döyüşlərinin nəticələri ilə bağlı Milli Məclisdə "Təmas xəttində son hadisələr: beynəlxalq humanitar hüququn problemləri" mövzusunda dinləmələrdə səslənmiş fikir və rəylər baş vermiş hadisələrin mahiyyətinin açılması baxımından əhəmiyyətlidir.

Bu istiqamətdə göstərilən fəaliyyətin davamı olaraq bu ilin fevralında insanlığa qarşı törədilən bəşəri cinayətlərə beynəlxalq müstəvidə hüquqi qiymət verilməsinə nail olmaq məqsədilə Azərbaycan Respublikasının Milli Məclisi, "Qüdrətli Azərbaycan naminə" İctimai Birliyi və Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının birgə həyata keçirdikləri "Soyqırımı və etnik təmizləmə cinayətlərinin dünya səviyyəsində tanınmasının hüquqi aspektlərinin öyrənilməsi" layihəsi çərçivəsində hazırlanmış "Beynəlxalq cinayətlərin qarşısının alınması və onları törədən şəxslərin cəzalandırılması haqqında" qanun layihəsi işlənib hazırlanmış və onun təqdimatı keçirilmişdir.

2016-cı ildə Azərbaycan parlamentində "Xocalı soyqırımı beynəlxalq hüquq müstəvisində" mövzusunda keçirilmiş ictimai müzakirə bu faciə ilə əlaqədar hüquq mühafizə orqanları, parlament və vətəndaş cəmiyyəti qarşısında duran vəzifələrin müəyyənləşdirilməsi və Xocalı soyqırımına dair həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq istiqamətində göstərilən ardıcıl fəaliyyətin tərkib hissəsidir.

Milli Məclisin çoxşaxəli fəaliyyətinin tərkib hissəsi olan tədbirlərin bir sıra cəhətlərinə görə ənənəvi olmayan fərqli formatlarda keçirilməsi onların daha maraqlı və cəlbedici olması üçün vacib şərtdir.

İnsan hüquqları komitəsinin təklifi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə 2017-ci ildə Milli Məclisin kitabxanasının oxu zalında "Müasir çağırışlar və islam həmrəyliyi" mövzusunun elmi, tarixi və siyasi aspektlər baxımından müzakirəsi həm məzmunu, həm də forması ilə seçilən tədbirlərdəndir.

2016-cı ildə "Bələdiyyələrin maliyyə və iqtisadi potensialının gücləndirilməsi perspektivləri" mövzusunda konfransın bölgələrin birində - Şəmkir rayonunda keçirilməsi ilə bağlı təşəbbüs isə Milli Məclisin Regional məsələlər komitəsinə məxsusdur.

Milli Məclisdə Bakı şəhəri Binəqədi rayon bələdiyyəsinin "Parlamentdə bir gün" layihəsi yerli özünüidarəetmə qurumu ilə qanunverici orqanın qarşılıqlı fəaliyyət imkanları barədə geniş fikir mübadiləsi ilə müşayiət olunmuşdur.

"Ankara məktəbi" məktəb-liseyin müəllim və şagird heyətinin Milli Məclisdə deputatlarla görüşü, düşünürəm ki, uşaqların parlament və onun fəaliyyəti barədə təsəvvürlərinin formalaşmasına müsbət təsir göstərmişdir. Belə tədbirlər artıq davamlı xarakter almışdır.

Bu ilin mart ayında Bakı şəhərində Azərbaycan Respublikası Milli Məclisinin, Türkiyə Böyük Millət Məclisinin, Ukrayna Ali Radasının, Polşa və Latviya seymlərinin komandalarının iştirakı ilə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 100 illik yubileyinə həsr olunmuş parlament komandalararası beynəlxalq futbol turniri də geniş tamaşaçı kütləsi toplayıb və çox maraqla izlənib. Tədbirin əsas məqsədi parlament diplomatiyasına töhfə vermək, idman siyasətini tətbiq etməklə Azərbaycanın mövqeyini beynəlxalq arenada möhkəmləndirmək və onu tanıtmaqdır.

Milli Məclis ilə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası və Azərbaycan Mətbuat Şurası arasında 2015-ci ildə imzalanmış əməkdaşlıq haqqında anlaşma memorandumlarında əksini tapmış müddəaların reallaşdırılması parlamentin ictimai fəaliyyətini zənginləşdirən istiqamətlərdən biridir.

Azərbaycan bütün beynəlxalq təşkilatlarla münasibətlərini qarşılıqlı hörmət, anlaşma əsasında davam etdirməyə, bunun üçün açıq fikir mübadiləsi aparmağa hazır olduğunu öz əməli ilə həmişə sübut etmişdir.

2016-cı ilin sentyabrında Milli Məclisdə Avropa İttifaqı - Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin 13-cü iclasında tərəfləri maraqlandıran məsələlər ətrafında geniş müzakirə aparılmış, Avropa İttifaqı və Avropa



Parlamenti ilə Azərbaycan arasında əlaqələrin dərinləşdirilməsinin əhəmiyyəti vurğulanmış, qarşılıqlı münasibətlərin səviyyəsinin yüksəldilməsi ilə bağlı Azərbaycanın əldə etdiyi nailiyyətlər yüksək qiymətləndirilmiş və bu sahədə mövcud olan maneələrin aradan qaldırılmasının yolları araşdırılmışdır.

Həmin ilin dekabrında Milli Məclisdə Azərbaycan, Gürcüstan, Ukrayna və Moldovanın parlamentariləri, dövlət rəsmiləri və digər beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə GUAM Parlament Assambleyasının 9-cu sessiyasının nəticələri ənənəvi diplomatiyanı tamamlayan parlament diplomatiyasının əhəmiyyətli problemlərin aradan qaldırılmasına mühüm töhfələr verdiyini təsdiq edən bir tədbir kimi yadda qalmışdır. Sessiya çərçivəsində GUAM-ın region ölkələri arasında dialoqun inkişaf etdirilməsi və möhkəmləndirilməsinə böyük kömək göstərə biləcəyi ilə bağlı səslənmiş fikir və rəylər bunu inamla söyləməyə əsas verir.

Bu ilin iyununda ATƏT Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin ölkəmizdə səfərdə olan ATƏT-ə üzv ölkələrin daimi nümayəndələrindən ibarət heyətlə görüşü ATƏT-in və onun institutlarının regionda gedən prosesləri dərindən öyrənməsi üçün böyük əhəmiyyət kəsb edir. Düşünürəm ki, bu tədbiri bölgədəki prosesləri təhlil etmək və ölkələrin mövqelərini müəyyənləşdirmək, qurumun siyasətinin prioritet istiqamətlərini daha dəqiq formalaşdırmaq işinə bir töhfə kimi dəyərləndirmək olar.

"İki dövlət, bir millət" devizi altında daim inkişaf edən və püxtələşən Azərbaycan-Türkiyə və digər türkdilli ölkələrlə formalaşmış qardaşlıq münasibətlərinin parlamentlər arasında yüksək səviyyədə dəstəklənməsi Milli Məclisin prioritet fəaliyyət istiqamətlərindəndir. Beşinci çağırış dövründə bu münasibətlərə yeni pozitiv çalarlar gətirilib, hər iki ölkənin rəhbərlərinin bu siyasətə verdiyi önəmin mahiyyətinə uyğun addımlar atılıb. 2016-cı ildə Milli Məclisdə Türkdilli ölkələrin Parlament Assambleyası (TürkPA) tərəfindən təşkil olunmuş "Türkdilli Ölkələrin Parlament Assambleyasına üzv ölkələr son 25 ildə" adlı konfransın ruhu da məhz bu münasibətdən qaynaqlanır. Assambleyanın Beynəlxalq Katibliyinin Bakı şəhərində inşa etdirdiyi mənzil-qərargahının rəsmi açılış mərasimində üzv ölkələrin - Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan parlamentlərinin sədrləri səviyyəsində iştirakları səmimi dostluq və həmrəylik nümunəsidir.

2018-ci ildə Bakıda Milli Məclislə ATƏT PA-nın İpək Yoluna Dəstək Qrupunun birgə təşkilatçılığı ilə "İpək yolu boyunca iqtisadi əməkdaşlıq və mədəni əlaqələrin inkişaf etdirilməsində parlamentarilərin rolu" mövzusunda beynəlxalq konfransda 20-dən çox ölkənin parlament və hökumət nümayəndələri, həmçinin ölkəmizdəki diplomatik korpusun və beynəlxalq təşkilatların təmsilçiləri, səfirlər, KİV nümayəndələri iştirak etmişlər. ATƏT PA-nın prezidentinin və baş katibinin tədbirdə şəxsən iştirak etmələri və konfransın sonunda qurumun Bakı Bəyannaməsinin yekdilliklə dəstəklənməsi İpək yolu təşəbbüsünə verilən böyük önəmdən irəli gəlir.

İpək Yoluna Dəstək Qrupu 3 qitənin (Asiya, Avropa və Amerika) təmsil olunduğu ATƏT məkanında əməkdaşlıq istiqamətlərini şaxələndirməyi qarşısına məqsəd qoyub. Asiya ilə Avropanı birləşdirən nəhəng iqtisadi, ticarət və nəqliyyat qovşağı olan qədim İpək yolunun müasir dövrdə tam gücünə nail olunduğu halda ölkələr arasında iqtisadi, ticari, nəqliyyat və mədəniyyət sahələrində qarşılıqlı əməkdaşlığın genişlənməsi və xalqların bir-birinə daha da yaxınlaşması üçün çevik siyasi və iqtisadi platforma rolunu oynayacağı şübhə doğurmur.

Son illər respublikamızın ictimai-siyasi həyatında baş vermiş ən əhəmiyyətli və önəmli hadisə 2018-ci il aprelin 11-də keçirilmiş növbədənkənar prezident seçkiləridir. Heydər Əliyev ideyalarının möhtəşəm qələbəsi və Yeni Azərbaycan Partiyasının böyük uğuru kimi çağdaş tariximizə yazılmış bu gün həm də xoş amallara səs vermiş xalqla iqtidarın sarsılmaz birliyinin nümayişidir. Deputatlar qürurlu anlar yaşadan andiçmə mərasiminin Milli Məclisin iclas zalında keçirilməsi isə, düşünürəm ki, hakimiyyət qollarından biri kimi Azərbaycan parlamentinin cəmiyyətdə və beynəlxalq aləmdəki nüfuzlu mövqeyinə və fəaliyyətinə verilən yüksək qiymətdir.

İki ay bundan öncə ölkə ictimaiyyətinin böyük təntənə ilə qeyd etdiyi Azərbaycan parlamentinin 100 illiyinə həsr olunmuş yubiley tədbirləri barədə isə xüsusi danışmaq istərdim. Milli Məclisin xüsusi iclasında iştirak edən 44 ölkənin 37 nümayəndəsi çıxış etdi. Bu yubiley tədbirində 300-dən çox qonaq, o cümlədən 14 spiker, bir beynəlxalq təşkilatın rəhbəri, 10 beynəlxalq təşkilatın nümayəndəsi, 20 ölkənin vitse-spikeri, digər ölkələrin dostluq qruplarının rəhbərləri iştirak edirdilər. Dünyada mövcud olan dövlətlərin dörddəbirinin iştirakı ilə parlamentdə gerçəkləşmiş möhtəşəm yubiley iclasında qonaqları səmimiyyətlə salamlayan ölkə Prezidenti cənab İlham Əliyevin parlamentin tarixinə dair və Azərbaycan reallıqlarını əks etdirən maraqlı və məzmunlu çıxışı toplantı iştirakçıları tərəfindən böyük maraqla dinlənildi. Bu, eyni zamanda Azərbaycanın və onun parlamentinin bu gün dünyada artmaqda olan nüfuzunun, yerinin və rolunun göstəricisidir. Çünki Azərbaycan parlamenti keçdiyi 100 il ərzində xalqın, cəmiyyətin təmsilçisi olaraq əldə etdiyi təcrübəni bu gün daha səmərəli şəkildə reallaşdırmağı bacardığını və qurucu babalarımızın ideyalarına sadiq olduğunu öz ardıcıl və məqsədyönlü fəaliyyəti ilə ortaya qoyur. Təbrik nitqində Azərbaycanın uğurlu inkişafında Milli Məclisin rolunu xüsusi qeyd edən dövlət başçısı demişdir: "Azərbaycan parlamenti həm Heydər Əliyevin dövründə, həm də bu gün öz fəaliyyəti ilə ölkəmizin müstəqilliyini möhkəmləndirir, inkişafını təmin edir, bu inkişafa öz töhfəsini verir. Bizim qanunvericilik bazamız ən yüksək meyarlara cavab verir. Biz bir çox beynəlxalq konvensiyalara qoşulmuşuq və azadlıqların təmin edilməsində, demokratik inkişafla bağlı siyasətimizin aparılmasında Azərbaycan parlamentinin çox böyük rolu var". Buradan belə nəticəyə gəlmək olar ki, Azərbaycan parlamenti dövlətimizin və dövlətçiliyimizin möhkəm sütunlarından biri kimi öz rolunu məharətlə apara bilir. Yubiley münasibətilə Milli Məclisin Sədri Oqtay Əsədovun bilavasitə rəhbərliyi ilə hazırlanmış və milli qanunvericiliyimizin 100 illik yoluna işıq salan 2 clddən ibarət "Azərbaycan parlamentarizmi tarixi" kitabındakı dəyərli və zəngin materiallar da söylənilənlərə tutarlı sübutdur.

Beşinci çağırış dövründə seçicilərlə iş, həmişə olduğu kimi, deputat fəaliyyətinin əsas istiqamətlərindən biri olmuşdur. 3 il ərzində Milli Məclisin aparatına 18 mindən çox təklif, ərizə və şikayət daxil olmuş, 15 minədək vətəndaş deputatlar tərəfindən qəbul edilmişdir. Araşdırmalar göstərir ki, aidiyyəti üzrə ünvanlanmış deputat sorğularına daxil olan cavabların faiz nisbəti əvvəlki dövrə nisbətən artmışdır ki, bu da dövlət-vətəndaş münasibətlərinin yüksələn xətlə inkişaf tendensiyasına dəlalət edir.

Son 3 il ərzində deputatların və Milli Məclis aparatının iş şəraitinin yaxşılaşdırılması ilə bağlı məsələlər də parlament rəhbərliyinin diqqət mərkəzində olmuşdur. Onun ardıcıl səyləri nəticəsində parlament televiziyası texniki cəhətdən ən müasir rəqəmsal avadanlıqlarla təchiz olunaraq yenidən qurulmuşdur ki, bu da Milli Məclisin fəaliyyətinin daha operativ şəkildə və yüksək səviyyədə işıqlandırılmasına imkan yaradır.

Beləliklə, milli qanunvericiliyimizin təkmilləşdirilməsi və ən yüksək standartlara uyğun şəkildə formalaşdırılması istiqamətində ulu öndər Heydər Əliyevin başladığı tarixi yol bu gün uğurla davam etdirilir.

*Tam əminliklə söyləmək mümkündür ki, əvvəlki dövrlərdə qazanılmış nailiyyətləri yeni dövrün çağırışları fonunda bir qədər də artıran Milli Məclis öhdəsinə düşən bütün vəzifələri layiqincə yerinə yetirməyə, Azərbaycanın qanunvericilik orqanını dünyanın inkişaf etmiş ölkələrinin parlamentləri səviyyəsinə qaldırmağa müvəffəq olmuşdur. Bu, Milli Məclisin üzvləri kimi bizi ölkəmizin tərəqqisi naminə daha məsuliyyətli olmağa və artıq bir əsrlik yubileyini qeyd etmiş və xalqımızın suveren iradəsini ifadə edən Azərbaycan parlamentinin növbəti yüzillik tarixinə yeni şanlı səhifələr yazmağa sövq edir.*

**Bahar MURADOVA,**
**Milli Məclis Sədrinin müavini,**
**İnsan hüquqları komitəsinin sədri,**
**YAP İdarə Heyətinin üzvü, siyasi elmlər üzrə fəlsəfə doktoru**



# Ağdam İlham Əliyevin siyasi kursuna hər zaman sadiqdir

"Siz I Qarabağ müharibəsində böyük fədakarlıq, rəşadət göstərmisiniz. Bu dəfə də - Aprel hadisələrində də böyük qəhrəmanlıq nümayiş etdirdiniz. Bütün Azərbaycan xalqı bunu bilir və sizinlə fəxr edir. Mən bir daha sizə minnətdarlığımı bildirmək istəyirəm ki, siz o ağır günlərdə xalqa, dövlətə olan sədaqətinizi göstərmisiniz, qəhrəmanlıq göstərmisiniz. Bilin ki, Ağdam rayonunun inkişafı daim diqqət mərkəzindədir".

İki il öncə, 2016-cı ildə baş verən Aprel döyüşləri zamanı Ağdam bir daha sınağa çəkildi. Erməni silahlı birləşmələri rayonun bizim nəzarətimizdə olan kəndlərini atəşə tutub qorxu-vahimə hissi yaratmaq istəsələr də, yenə mətin dayandı ağdamlılar. 743 ev dağıldı, həyətlər bombalandı, amma yerli əhali Ali Baş Komandanına, onun müzəffər ordusuna güvənərək bir addım da geri çəkilmədi və cəbhədə gərginliyin davam etdiyi zamanda, may ayının 1-də ön xəttə, Ağdama gələn Prezident İlham Əliyev əhalinin bu qəhrəmanlığını dəyərləndirərkən bu fikirləri söylədi. Bu, İlham Əliyevlə xanımı Mehriban Əliyevanın ağır günlərdə cəbhəyanı ərazilərdə düşmənlə üz-üzə yaşayan insanlarla hər zaman bərabər olduqlarının təsdiqi və onlara göstərdikləri dəstəyin, hörmətin, məhəbbətin ifadəsi idi.

Cəmi 7 aydan sonra dağıdılmış evlərin bərpası və dövlət başçısının xanımı Mehriban Əliyeva ilə yenidən Qarabağa səfəri bir daha təsdiqlədi ki, ağdamlıların ən böyük himayədarı yenə də Azərbaycan Prezidentidir.

Həmin günü çox əlamətdar tarix adlandıran İlham Əliyev bəyan etdi ki, bu evlərin timsalında güclənən Azərbaycan və onun mətin vətəndaşı görünür.

Hər zaman Ağdamın sosial-iqtisadi inkişafını diqqət mərkəzində saxlayan cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva iki ildən sonra noyabr ayının 5-də bir daha Qarabağ səfərinə çıxdılar. Bu səfər də, digərləri kimi, çox əlamətdar hadisələrlə yaddaşlara yazıldı.

Öncə onu vurğulamaq yerinə düşər ki, bu, İlham Əliyev və Mehriban Əliyevanın son 2 ildə Ağdama 3-cü səfərləri idi. Bu səfər ilk növbədə ağdamlıların timsalında bütün qaçqın və məcburi köçkünlərin dəyanət hissini daha da gücləndirdi. Prezident bir daha bəyan etdi ki, Azərbaycan dövləti işğal faktı ilə barışmayacaq və bu gün istənilən varianta hazırdır. Azərbaycanın işğal altındakı torpaqlarını azad etməyə hazır olan qətiyyətli Ali Baş Komandanı və onun müzəffər ordusu var. Aprel döyüşləri kimin nəyə qadir olduğunu sübut edib. Aprel döyüşlərini barışmaz ruhumuzun təzahürü adlandıran İlham Əliyev Ağdamda bir daha işğalçı Ermənistana mesajlar ünvanladı. Bəyan etdi ki, bunu heç gizlətməyə də ehtiyac yoxdur. Azərbaycan bundan sonra da Ermənistanı bütün regional layihələrdən təcrid edəcək, bütün vasitələrdən istifadə edib öz ərazi bütövlüyünü bərpa edəcək. Ermənistanın yeni rəhbərliyi əvvəlki kriminal rejimin səhvlərini təkrarlamamalıdır, işğal edilmiş torpaqlardan öz işğalçı qüvvələrini tezliklə danışıqlar yolu ilə çıxarmalıdır və imkan verməlidir ki, Azərbaycan vətəndaşları öz doğma, tarixi, əzəli torpaqlarına qayıtsınlar. Bunu nə qədər tez anlasalar, o qədər də onlar üçün yaxşı olar.

Noyabrın 5-i təqvim günü Ağdamın tarixinə ən əlamətdar gün kimi yazıldı. Prezident İlham Əliyev və Mehriban xanım Əliyevanın rayona göstərdikləri diqqət və qayğı Ağdam ictmaiyyətini daha da qürurlandırdı. Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunmuş Muğam Mərkəzinin, "Azərxalça"nın Ağdam filialının, 29 min nəfərin yaşadığı 14 yaşayış məntəqəsini birləşdirən Quzanlı-İmamqulubəyli-Orta Qərvənd-Xındırıstan və Əfətli-Hacıturalı-Həsənxanlı avtomobil yollarının açılışı Ağdama verilən qiymətin, göstərilən diqqət və qayğının bariz təcəssümü idi.

Bu gün 198 600 nəfər əhalisi olan Ağdamın 93 min nəfərədək sakini hazırda rayonun ərazisində yaşayır. Qalan əhalisi respublikanın 62 şəhər və rayonunda müvəqqəti məskunlaşıb.

Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində rayonun inkişafına böyük diqqət göstərilir. Son aylarda görülən abadlıq-quruculuq işləri daha da artıb. Ümumiyyətlə, rayonun işğal altında olmayan 44 yaşayış məntəqəsində müxtəlif dövlət proqramları çərçivəsində geniş tikinti-bərpa işləri görülüb. Rayonda Olimpiya İdman Kompleksi, Muğam Mərkəzi, Qarabağ Atçılıq Kompleksi, Ağdam Rayon Mərkəzi Xəstəxanası və Uşaq Xəstəxanası, Doğum Evi, Bayraq meydanı və Bayraq Muzeyi, Avtovağzal Kompleksi tikilib. Ağdam Dövlət Dram Teatrının binası əsaslı təmir olunub, xalçaçılıq müəssisəsi yaradılıb, ümumi uzunluğu 72,7 kilometr olan kəndlərarası avtomobil yolları yenidən qurulub. Ümumiyyətlə, rayonun yol infrastrukturu təxminən 95 faiz təzələnib. Bundan başqa, 39 ümumtəhsil məktəb istifadəyə verilib, 6600-dən çox məcburi köçkün ailəsi üçün salınmış 18 yeni qəsəbədə 18 ümumtəhsil və 3 musiqi məktəbi, 10 məktəbəqədər təhsil müəssisəsi inşa edilib, qaz, elektrik, içməli su xətləri çəkilib, digər mühüm infrastruktur layihələri həyata keçirilib.

Bu gün Ağdamda reallaşan və həyata keçirilməkdə olan layihələr rayonun sosial-iqtisadi inkişafına böyük töhfə verir. Hazırda rayonda elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur, qazlaşdırmanın səviyyəsi 98 faizdir.

Ölkə ictimaiyyətinə yaxşı bəllidir ki, Qarabağ müharibəsinin böyük ağırlıqları məhz Ağdam əhalisinin üzərinə düşüb. Buna baxmayaraq, Ağdam düşmənə ciddi müqavimət göstərib. Elə bu gün də belədir. İşğala məruz qalsa da, minlərlə şəhid versə də, Ağdamda həyat qaynayır. İlham Əliyevin qayğısı sayəsində Ağdam əvvəlki şöhrətini qaytarır. Səfərdən sonra dövlət başçısının rayonun sosial-iqtisadi inkişafı ilə bağlı imzaladığı sərəncamlar da təsdiq edir ki, Ağdam getdikcə daha da çiçəklənəcək.

Prezidentin sərəncamlarına əsasən təmas xəttinə yaxın 19 yaşayış məntəqəsində mülki əhalinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq məqsədilə 139 ailənin yaşadığı 121 fərdi yaşayış evi bərpa ediləcək, rayonun Birinci Yüzbaşılı kəndində 132 şagird yerlik yeni ümumtəhsil məktəbi binası tikiləcək, əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədilə 35 subartezian quyusu qazılacaq. Bunun üçün isə Prezidentin Ehtiyat Fondundan 6.5 milyon manat vəsait sərf olunacaq.

Göründüyü kimi, dövlət başçısının Ağdama bütün səfərləri rayon əhalisinin həyatında, xatirələrində silinməz izlər qoyur. İki ildə üç səfər bütün ağdamlılar tərəfindən onlara böyük himayədarlığın bariz təcəssümü kimi dəyərləndirilir. Heydər Əliyev Fondunun dəstəyi ilə tikilən Muğam Mərkəzi isə Mehriban xanım Əliyevanın Qarabağın muğam beşiyinə növbəti töhfəsi oldu. Həmişə olduğu kimi, yenə də Ağdam dövlət başçısına öz möhtəşəm dəstəyini, etimadını nümayiş etdirərək onun siyasi kursuna hər zaman sadiq olduğunu göstərdi.

**Amil CAVADOV,**
**YAP Gənclər Birliyinin**
**Şura üzvü**

# İlkini "Çıraq" olan AÇG ailəsi getdikcə böyüyür

*Əvvəli 1-ci səh.*

AÇG Azərbaycanın iqtisadi inkişafının təmin edilməsində misilsiz rol oynadı. Onun ardınca digər neft-qaz və ixrac layihələri ölkənin böyük həcmdə valyuta ehtiyatları əldə etməsinə imkan verdi. Azərbaycan dövləti bu ehtiyatlardan səmərəli istifadə edərək onları ölkənin əsas inkişaf istiqamətlərinə yönəltdi. Beləliklə, əhalinin rifah halı yüksəldi. Eyni zamanda çoxsaylı infrastruktur layihələri icra edildi, iqtisadiyyat şaxələndirildi, sosial məsələlər həllini tapdı. Böyük həcmli işlərin gerçəkləşməsinə yönəldilən vəsaitlərin bünövrəsi "Çıraq"dan 21 il əvvəl hasil olunmasına başlanmış neftdən əldə edilən gəlirlərlə yaranmışdır. Belə ki, hələ 1999-cu ildə ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycan Respublikası Dövlət Neft Fondu yaradıldı. Sonrakı illərdə ölkənin inkişafına sərf olunan daxili investisiyaların xeyli hissəsi məhz bu fondun hesabına formalaşdı.

Neft-qaz gəlirlərindən bəhs edərkən Prezident İlham Əliyev demişdir: "Əsrin kontraktı"nın nəticələri, sadəcə olaraq, Neft Fonduna gələn gəlirlərlə ölçülmür. Bunun çox geniş və çox böyük təsiri olub və bu gün də var. Biz "qara qızıl"ı insan kapitalına çevirə bildik. Biz neft gəlirlərimizdən çox səmərəli şəkildə istifadə etdik və bu gün dünya miqyasında bu, xüsusilə qeyd edilir. Bir çox ölkələrin zəngin neft yataqları var, ancaq o ölkələr səfalət içindədir, yoxsulluq şəraitində yaşayırlar. O ölkələrdə sabitlik pozulur, neft o ölkələrə fəlakət gətirir. Azərbaycanda isə neft rifah, inkişaf, sabitlik, güc gətirir. Bu gün Azərbaycanın müstəqil ölkə kimi yaşamasında, iqtisadi potensialımızın formalaşmasında neft-qaz amili çox böyük rol oynayır".

"Çıraq"ın salnaməsi davam edir. Zaman göstərdi ki, AÇG böyük potensialı olan yataqlar blokudur. Onun hələ xeyli ehtiyatları var. Odur ki, keçən il sentyabrın 14-də imzalanmış AÇG-yə aid yeni saziş - onu "Yeni əsrin müqaviləsi" adlandırırlar - 1994-cü ildə imzalanmış sazişdən daha böyükmiqyaslıdır. Bu saziş "Çıraq"ın da ömrünü uzadacaq. Başqa sözlə, yeni müqaviləyə əsasən, 2049-cu ilin sonunadək AÇG-dən hasilat davam edəcək və ölkəmizə yeni iqtisadi mənfəət gətirəcək.

Yeni layihəyə əsasən, AÇG müqavilə ərazisində - "Mərkəzi Azəri" və "Şərqi Azəri" qurğuları arasında, mərkəzi nöqtədə daha bir platforma inşa ediləcək. Beləliklə, "Mərkəzi Şərqi Azəri"nin yaranması ilə ilkini "Çıraq" olan AÇG ailəsinin üzvlərinin sayı daha da artacaq.

**Flora SADIQLI,**
**"Azərbaycan"**







# Zəhmətin bayram təntənəsi

## *Bunun ünvanı Lənkəranda keçirilən "Çay, çəltik, sitrus" festivalı idi*

Səhərdir. Xəzərdən doğan günəş zərrin şüalarını ətrafa səpələyir. İlıq payız havası ürəyə məlhəm kimi yayılır. Gül-çiçəklər də payızın belə bir günündə qönçə gözlərini açaraq al-əlvan ləçəkləri ilə insanda könül xoşluğu yaradır, ruha rahatlıq, gözə dinclik gətirir. Qərb istiqamətində payızın qızılı donunu geyən silsilə dağlar, şərqdə mavi gözlü Xəzər bu gözəlliyi daha da füsunkar edir. Bunları gördükcə, duyduqca Lənkəran haqqında yazdığım şeirdən misralar yadıma düşür:

Hüsnün başdan-başa bir tamaşadır,
İnsanla təbiət burda qoşadır.
Adama xoş ovqat, xoş gün yaşadır
Xəzərdən gün çıxıb söküləndə dan,
Gözəllər gözəli gözəl Lənkəran.

Uzanır sahilə Talış dağları,
Naringi, portağal, limon bağları.
Allahın payıdır sərvəti, varı,
Burda gül-çiçəkdir hər tərəf, hər yan,
Gözəllər gözəli gözəl Lənkəran.

Bəli, böyük Yaradan bu diyardan heç nəyi əsirgəməyib. Ölkəmizdəki subtropik iqlim şəraiti yalnız bu bölgədə mövcuddur. Çay, sitrus meyvələri - limon, naringi, portağal, feyxoa onun əsas nemətləri, vizit kartıdır. Lakin Yer üzünün əşrəfi sayılan insan olmasaydı, belə gözəlliklər, nemətlər də kimsəsiz, yetim kimi qalardı, gərəksiz görünərdi. Təbiətin ayrılmaz hissəsi olan insan öz zəhməti, ağlı, düşüncəsi, zövqü ilə onu daha da zənginləşdirir, məhsul bolluğu yaradır.

Artıq ikinci ildir ki, Lənkəranda "Çay, çəltik, sitrus" festivalı keçirilir. Fermerlər, sahibkarlar qazandıqları nailiyyətləri nümayiş etdirirlər. Bu məqsədlə noyabrın 10-da sevincli bir gün yaşandı, festival keçirildi. Şəhər icra hakimiyyətinin təşkilatçılığı ilə belə bir möhtəşəm tədbirə ciddi hazırlıq görülmüş, sinoptiklərin məlumatı əsas amillərdən biri kimi nəzərə alınmışdı.

Şəhərin mərkəzindəki Heydər Əliyev parkı hələ tədbirdən bir gün əvvəl bayramsayağı bəzədilmiş, parkın yanındakı çoxmərtəbəli binanın fasadından festivalın loqosu, digər yerlərdə şüarlar, transparantlar asılmışdı. Noyabrın 9-da axşamüstü festivalda öz məhsullarını nümayiş etdirəcək ayrı-ayrı şirkətlər, müəssisələr, fermerlər, sahibkarlar onlar üçün təyin olunmuş yerlərdə, pavilyonlarda öz yerlərini tutmuşdular. Festivalın keçirildiyi xatirə parkının girişində isə Lənkəranın qədimliyini əks etdirən "Qala qapı" maketi quraşdırılmış, qarşısında zirehli, dəbilqəli, əli nizəli, qalxanlı süvari əsgərlər dayanmışdılar.

Saat 9 radələridir. Lənkəran şəhər sakinləri, rayonun ayrı-ayrı qəsəbə və kəndlərindən gələn insanlar dəstə-dəstə meydana daxil olurlar. Onlar görüşüb hal-əhval tutur, bu xoş gün münasibətilə bir-birlərini təbrik edirlər. Rayon Mədəniyyət evinin musiqi kollektivlərinin ifa etdikləri şux, oynaq musiqi nömrələrinin sədası pərdə-pərdə ətrafa yayılaraq onların əhvalına əlavə ovqat qatır.

Saat 11-in yarısıdır. Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, dəvət olunmuş qonaqlar və əlaqədar təşkilatların nümayəndələri "Qala qapı"sından festivalın keçirildiyi məkana daxil olurlar. Qələbə, mübarizə simvolu olan "Cəngi" sədaları göyə yüksəlir. Məktəblilər tədbir iştirakçılarını salamlayırlar. Parkın girəcəyində üzərində meyvələri olan müxtəlif növ sitrus ağaclarının dibçəkləri düzülmüş, onların arasında əllərində yanındakı ağacın meyvəsindən xonça tutmuş milli geyimli qızlar durmuşlar. Bu vaxt "Yanar ürək" mahnısı səslənir. Şəhər rəhbərliyi, gələn qonaqlar ulu öndər Heydər Əliyevin burada ucaldılmış əzəmətli heykəli önünə gül dəstələri qoyurlar.

Aparıcı gur səslə "Hörmətli qonaqlar, xanımlar, cənablar! Bu gün Lənkəranda ən yeni tariximizin daha bir şərəfli səhifəsi yazılır. Burada "2-ci Çay, çəltik, sitrus" festivalı keçirilir. Bu festival eyni zamanda rayondakı digər sahələrin - tərəvəz, bostan, meyvə məhsullarının son illər durmadan artdığını, sənaye, elm, təhsil, səhiyyə, mədəniyyət və idmanın inkişafını özündə ehtiva edir", - deyir.



Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı T.Qaraşov Cənub mirvarisi torpağının yetişdirdiyi məhsulların nümayiş olunduğu pavilyonlardan birinin lentini kəsir. Lənkəran Mədəniyyət Mərkəzinin qızlardan ibarət "Ay Lolo" rəqs ansamblı, habelə şəhər 4, 6 və 10 saylı məktəblərinin şagirdlərinin iştirakı ilə "Azərbaycan çayı" adlı rəqs kompozisiyası təqdim olunur. Sonra "Çayımızın dadı var" adlı pavilyona baxış başlanır. Burada ayrı-ayrı fermerlərin, təsərrüfatların çay məhsulları, bal, mürəbbə, şirniyyat sərgisi qurulmuşdur. Yanında da bütöv və dilimlənmiş limonlar. Hər kəs öz məhsulunun, çayının dadını göstərmək üçün dequstasiya stolu qoymuşdur və hər kəs təşəbbüs göstərir ki, onun dəmlədiyi çaydan içsin. Fonda ölməz müğənni Şövkət Ələkbərovanın ifasında "Çay" mahnısı eşidilir.

Aparıcı Lənkəran çayı haqqında ətraflı məlumat verir: "Respublikamızda çay bitkisi ilk dəfə 1912-ci ildə Lənkəran bölgəsində əkilmişdir. İlk çay fabriki də burada, 1937-ci ildə yaradılmışdır. Hazırda rayonda 604,3 hektar çay plantasiyası var ki, onun da 454,9 hektarı yeni salınmış və bərpa edilmiş sahələrdir. Cari ildə 50 hektarda çay plantasiyası salınması nəzərdə tutulmuşdur və bununla əlaqədar işlər görülür. 2018-ci ilin ötən ayları ərzində rayon üzrə 275 ton yaşıl çay yarpağı istehsal olunmuşdur ki, bu da keçən ilin eyni dövrü ilə müqayisədə xeyli çoxdur. Məhsul yığımı davam edir. Bütün sahələr kimi, indi Lənkəranda çayçılıq da sürətlə inkişaf edir. Bunun nəticəsidir ki, əvvəllər burada hərgah bir-iki növ çay istehsal olunurdusa, hazırda "Azərbaycan-1", "Azərbaycan-2", "Kolxida" və "İndoçin" çay növləri əkilib-becərilir. Rayondakı çay fabriklərində indi "Buket çayı", "Pürrəngi çay", "Qara məxməri çay", "Narın N-1 çayı", "Premium çay", "Feyxoa çayı", "Xan çayı", "Zəncəfilli çay", "Limonlu çay", "Nanəli çay", "Kəklikotulu çay", "Tibet çayı", "Ekstra çayı", "Qızıl buket", "Çayrud", "Fərmançay" və başqa çay növləri istehsal olunur. Yaxın gələcəkdə rayonda çay plantasiyalarının 1500-2000 hektara çatdırılması nəzərdə tutulur. Bu işdə fərqlənənlərdən biri də "Yaşıl Çay" MMC-nin rəhbəri Araz Yaqubovdur. Ölkə rəhbəri bu yaxınlarda Lənkəranda olarkən onu "Tərəqqi" medalı ilə təltif etmişdir".



Çayı mürəbbəsiz, balsız, şəkərsiz, nabatsız, şirniyyat məhsulları olmadan təsəvvür etmək mümkün deyil. Elə bunu nəzərə alaraq çay məhsullarının düzüldüyü pavilyonun bir tərəfində adlarını çəkdiyimiz bu məhsullar da düzülmüşdür. "Alov", "İpək yolu" şirniyyat evləri, Lənkəran Konserv Kombinatı, arıçılardan İttifaq Həsənov, Tarıyel Quliyev, İlkin Nəzərov, Rafil Paniyev və başqaları öz məhsullarını nümayiş etdirirlər. Onların hər biri burada dequstasiya masası da qoymuşdur.

"Lənkəranın çay dərən qızları" mahnısının sədaları ətrafa yayılır. Şağlaser Sənətkarlıq evinin rəqs qrupu bu mahnının sədaları altında rəqs edir.

Sonra üzərində "Lənkəran düyüsü - dillər əzbəri" yazılmış pavilyona tamaşa başlanır. Pavilyonun kənarlarına məşhur düyü növlərinin adları yazılmışdır. İstehsalatçılar, emalçılar süfrələrimizin şahı sayılan plovları bişirib bura gətirməyi də unutmayıblar. Ölkəmizin hər yerində olduğu kimi, Lənkəranda da elə toy-düyün, elə bayram, elə bir el şənliyi olmaz ki, orada düyü asılmasın, plov bişirilməsin. Minilliklər boyu bu diyarda düyü insanların əsas qidası olmuşdur. Lakin uzun illər idi ki, əsassız olaraq çəltikçilik gəlirsiz sahə hesab edilmiş və diqqətdən kənarda qalmış, düyünün xarici ölkələrdən alınıb gətirilməsinə üstünlük verilmişdi. Halbuki Lənkəranda becərilən "Ənbərbu", "Haşimi", "Həsənli", "Qırmızı ənbərbu", "Çampo" və "Sədri" düyülərinə keyfiyyətdə heç bir düyü çata bilməz. Onların özünəməxsus qoxusu, dadı-tamı vardır. Buna görədir ki, ölkəmizin əhalisi son illər ekoloji cəhətdən təmiz olan bu məhsullara üstünlük verir. 2018-ci ildə rayonda 826 hektar sahədə çəltik əkilmişdir. Bu da ötən ildəkindən 300 hektar çoxdur. Ümumilikdə cari ildə 3 min 387 ton düyü məhsulu istehsal olunmuş, hər hektarın məhsuldarlığı 41 sentner təşkil etmişdir.

Lənkəranlılar plovu çox sevirlər. Burada onun 14-dən artıq növü bişirilir. Əziz bayramlarda, şənliklərdə, xüsusilə Novruzda kütüm və çöl quşundan hazırlanmış ləvəngi birmənalı şəkildə plovla birlikdə süfrədə olmalıdır.

Uzun illər Lənkəran folklorunu həvəslə, ustalıqla təbliğ edən "Nənələr" ansamblının çıxışı alqışlarla qarşılanır. Onların nəğmələrinin sədası altında 5 saylı bağçanın fidanlarından ibarət eyni adlı rəqs qrupu çıxış edir. Bu isə folklor sənətinin nəsildən-nəslə ötürülməsi, yaşadılması deməkdir.

Ana təbiət 11 iqlimdən 9-nu vətənimizə, Azərbaycana bəxş etmişdir. Bu 9 iqlimdən də subtropik iqlim Cənub mirvarisi Lənkəranın payına düşüb. Yuxarıda qeyd etdiyimiz kimi, çay, limon, mandarin, portağal, feyxoa onun vizit kartıdır. Onun bu məhsullarının adına çoxlu şeir yazılıb, mahnı bəstələnib. Sitrus meyvəçiliyinin inkişaf etdirilməsi ilə bağlı son illər rayonda çox işlər görülmüşdür. Bağların həcmi genişləndirilmiş, dünyanın müxtəlif yerlərindən buraya daha keyfiyyətli və məhsuldar sortlar gətirilmişdir. Bağlar payızın bu günlərində sarı, narıncı rəngə boyanmışdır. Həmin meyvələr süfrələrin bəzəyidir. Sitrus bağlarının möcüzəsi təkcə onun meyvələrinin qızılı rəngində deyil, həm də faydasındadır. Əbəs deyil ki, limon dünyanın ən faydalı 10 meyvəsi sırasındadır. Qan təzyiqinin tənzimlənməsində, damarların kirəcdən təmizlənməsində onun əhəmiyyəti böyükdür. Hazırda rayonda 1319 hektar sitrus bağları mövcuddur. Keçən il bağlardan 12 min 880 ton məhsul tədarük edilmişdir. Bu il isə meyvə yığımı təzə başlanıb. Hələlik 6 min tona yaxın sitrus toplanıb. Hələ bağlarda meyvə çoxdur. 2016-2017-ci illərdə rayonda "Gilan Aqro" MMC tərəfindən 100 hektarda Cənubi Koreyadan, cari ildə isə "Fruit Garden" MMC-nin xətti ilə yenə 100 hektarda Türkiyədən gətirilmiş yeni məhsuldar sitrus meyvə sortları əkilmişdir.

Aparıcının dediyi kimi, "Lənkəran barəsində yüz eşitməkdənsə, onu bir dəfə görmək daha yaxşıdır. Necə deyərlər, "Çıx yaşıl düzə, qonaq gəl bizə..." Qonaq üçün isə lənkəranlıların gözü həmişə yollardadır". Müğənni Elgün Əlizadə həmin mahnını ifa edir. Mahnının ritmini tutan "Çölləmə" rəqs qrupunun oğlanları öz məharətlərini göstərirlər.

Lənkəran eyni zamanda turizmin inkişafı üçün geniş imkanlara malik olan bir məkandır. Zəngin tarixi, əsrarəngiz təbiəti belə deməyə əsas verir. Hələ sovetlər birliyi zamanında respublikamıza gələn ən hörmətli qonaqlar buraya səfər edərdilər. Müstəqilliyimizin son 15 ilində turizmlə bağlı rayonda genişmiqyaslı işlər görülmüş, bir çox infrastruktur layihəsi həyata keçirilmişdir. Bu gün Lənkəran şəhərində beynəlxalq əhəmiyyətli hava limanı fəaliyyət göstərir. Dünya standartlarına cavab verən Ələt - Astara - İran magistral şose yolu bu yaxınlarda istifadəyə verilmişdir. Ucqar dağ kəndlərinə belə yeni asfalt yollar çəkilmişdir və bu iş davam etdirilir.

Rayonda onlarla turizm obyektləri, istirahət mərkəzləri fəaliyyət göstərir. "Palıdlı sahil", "Qafqaz Hotel", "4 fəsil", "Şah sarayı", "Qala", "Fost", "Xəzər-Palace" və digərləri bu sıradandır. 2017-ci ildə istifadəyə verilən "Xəzər-Palace"ın açılışında dövlət başçısı cənab İlham Əliyev iştirak etmişdir. Xəzərin ləpədöyənində yerləşən bu istirahət məkanı ən müasir tələblərə cavab verir. 38 lüks otağı olan "Xəzər-Palace"ın açıq və qapalı hovuzları, fitnes zalı, sauna və türk hamamı, 300 nəfərlik konfrans zalı, həyətində isə uşaq istirahət parkı vardır. Hotel nömrələrindən əlavə, burada 8 villa da fəaliyyət göstərir. "Xəzər-Palace" "Beşulduzlu hotel" kimi təsnif edilmişdir. Bu il oktyabrın 15-də Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Lənkərana səfərləri çərçivəsində bir neçə obyektin, o cümlədən turizmin inkişafında mühüm rol oynayacaq 182 nömrəlik hotel binası, ikimərtəbəli tibb mərkəzi, 12 aktiv su mənbəyi olan İstisu və Sağlamlıq Mərkəzinin açılış lentlərini kəsdilər.

"Lənkəran" mahnısını bu torpağın hər bir sakini çox sevir. Elə bir şənlik, bayram, toy məclisi olmaz ki, bu mahnı orada ifa olunmasın. Budəfəki festivalda "Lənkəran" mahnısını Əhməd Kərimov ifa etdi. 17 saylı bağçanın uşaqlarının rəqsi bu mahnının təravətini daha da artırdı.

Parkın digər bir tərəfində "Dəmirağacı" - 6-cı sənətkarlıq sərgisinin panosu qoyulmuşdu. Bəli, bu torpağın simvollarından biri də dəmirağacıdır. Onun şəninə indiyədək neçə-neçə şeir yazılmışdır. Bu ağac haqqında mən də belə demişəm:

Dəmirağacına tay varsa, gətir,
O ancaq bu eldə, bu yurdda bitir.
Yayın istisində açaraq çətir,
Kölgəsi xəstəyə verər təzə can,
Gözəllər gözəli gözəl Lənkəran.

Lənkəran ölkəmizin qədim yaşayış yerlərindəndir. - Bu qədimliyi özündə əks etdirən Tarix-Diyarşünaslıq Muzeyi fəaliyyət göstərir. Muzeydə bu qədim diyarın tarixini, coğrafiyasını, etnoqrafiyasını və təbiətini özündə əks etdirən eksponatlar nümayiş etdirilir. Muzeyin xatirə kitabında sovetlər birliyi zamanında Lənkəranda olmuş dünya şöhrətli insanların ürək sözləri öz əksini tapmışdır. Bir neçə il öncə muzey əsaslı şəkildə yenidən qurulmuşdur. "Çay, çəltik, sitrus" festivalında muzey üçün ayrılmış bölmə də tamaşaçıların hədsiz marağına səbəb oldu.

Belə festivalların keçirilməsini təkcə çay, çəltik, sitrus bayramı kimi məhdudlaşdırmaq düzgün olmazdı. Bu tədbirdə rayonun digər istehsal, emal müəssisələrinin məhsulları, habelə təhsil, səhiyyə, mədəniyyət, bir sözlə, bütün sahələrdə əldə edilmiş uğurlar nümayiş etdirildi. Bunu cari ilin başa çatmasını əks etdirən göstəricilər kimi də dəyərləndirmək olar. Axı 2018-ci ilin başa çatmasına sayılı günlər qalmışdır.

Lənkəran əhalisinin sayı hazırda 226,8 min nəfərdir. Cari ilin ötən vaxtı ərzində rayonda 1286 körpə doğulmuşdur. 52 körpələr evi və uşaq bağçasında 2 min 900 uşaq tərbiyə alır. Festivala gələnlər uşaq bağçalarının sərgilərinə baxırlar.

Aparıcının gur səsi eşidilir: "Ulu öndər Heydər Əliyev hakimiyyətdə olduğu hər iki dövrdə Lənkərana xüsusi diqqət və qayğı göstərmişdir. Bu iş Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Son 15 ildə ölkə rəhbəri Lənkərana 10 dəfə səfər etmişdir. Bu yaxınlarda - oktyabrın 15-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Lənkəranın İstisu və Sağlamlıq Mərkəzinin, Olimpiya İdman Kompleksinin, "Lənkəran-2" yarımstansiyasının, Lənkəran Dövlət Aqrar İnkişaf Mərkəzinin, "Azərxalça" ASC Lənkəran filialının, Lənkəran sınaq laboratoriyasının, Hirkan-Daştatük-Biləsər avtomobil yolunun açılışlarında iştirak etmiş, ictimaiyyət nümayəndələri ilə görüşmüşlər. Bu obyektlərin hər biri Cənub mirvarisi Lənkəranın sosial-iqtisadi inkişafında mühüm rol oynayacaqdır. Həmin obyektlər eyni zamanda yüzlərlə iş yeri deməkdir".

Fonda 1 saylı Uşaq musiqi məktəbinin birləşmiş xoru "İlhamla irəli" mahnısını ifa edir. Aparıcı lənkəranlıların cari ildə qazandıqları nailiyyətlərdən bəhs edərək deyir: "2-ci Çay, çəltik, sitrus" festivalının çoxlu qəhrəmanı var. Bu əmək qəhrəmanlarını mükafatlandırmaq üçün söz Lənkəran Rayon İcra Hakimiyyətinin başçısı T.Qaraşova verilir. İcra hakimiyyətinin başçısı Prezident İlham Əliyevin Lənkərana göstərdiyi diqqət və qayğıdan ətraflı söhbət açaraq, rayonun sürətli inkişaf yolunda olduğunu bir daha vurğulayır. Bu işdə əməyi olan qabaqcıllara fəxri fərman və hədiyyələr təqdim edir.

Müğənninin ifa etdiyi "Yaşa, yaşa, ellərimiz" mahnısı könüllərə fərəh və qürur gətirir. Musiqi sədaları altında məktəblilər rəqs edir, əllərindəki bayraqları yellədirlər. Bununla da festival başa çatır. Əmək qabaqcılları, qonaqlar birlikdə şəkillər çəkdirirlər.

Axşam saat 17-də şəhər Mədəniyyət Mərkəzində Bakıdan dəvət edilmiş müğənnilərin iştirakı ilə bayram konserti oldu. Konsert bitdikdən sonra açıq havada atəşfəşanlıq keçirildi. Bax beləcə, Lənkəranda xoş bir gün yaşandı. Zəhmət, hünər dolu bir gün. Bu vaxt Lənkəran haqqında yazdığım şeirin aşağıdakı misraları ürəyimdən dilimə süzüldü:

Çağlayır sevincdən o mavi Xəzər,
Bərq vuran suları hüsnünü bəzər.
Belə görkəminə dəyməsin nəzər.
De, harda tapılar belə bir məkan?
Gözəllər gözəli gözəl Lənkəran.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***









# Azərbaycanın xalq artisti Amalya Pənahova son mənzilə yola salınıb





Noyabrın 9-da müasir Azərbaycan teatrı və kino sənətinin tanınmış nümayəndəsi, Dövlət mükafatı laureatı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, xalq artisti, sənətşünaslıq üzrə elmlər doktoru, professor Amalya Pənahova son mənzilə yola salınıb.

AZƏRTAC xəbər verir ki, vida mərasimində dövlət və hökumət rəsmiləri, elm və ictimaiyyət nümayəndələri, tanınmış mədəniyyət xadimləri iştirak ediblər.

Mərhumun cənazəsi Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində qoyulmuşdu. Salonda həzin matəm musiqisi səslənirdi. Sənətkarın tabutu önünə Azərbaycan Respublikası Prezidentinin və Birinci vitse-prezidentinin adından əklillər qoyulmuşdu.

Amalya Pənahovanın həmkarları, dostları, tanışları, tanınmış mədəniyyət və incəsənət xadimləri, mərhumun yaradıcılığının pərəstişkarları axın-axın Akademik Milli Dram Teatrının binasına gələrək görkəmli sənətkara və gözəl insana son borclarını verdilər.

Vida mərasimində çıxış edən mədəniyyət naziri Əbülfəs Qarayev mərhum sənətkarın Azərbaycan teatr və kinosunun inkişafı istiqamətində yorulmaz fəaliyyətindən, yaratdığı bənzərsiz obrazlar qalereyasından, onun insani keyfiyyətlərindən söz açıb.

Bildirilib ki, müasir Azərbaycan mədəniyyətində özünəməxsus yer tutan Amalya Pənahova zəngin yaradıcılıq axtarışları ilə milli teatr və kino sənətinin inkişafına dəyərli töhfələr verib. O, təkrarolunmaz fərdi ifadə üslubu və manerasında teatr mədəniyyətimizin tarixi ənənələrini bütün yaradıcılığı boyu bədii-estetik prinsiplərə uyğun, novatorcasına davam etdirib.



Nazir deyib ki, Amalya Pənahova Azərbaycan Dövlət Teatr İnstitutunun ikinci kursunda oxuyarkən mərhum rejissor Tofiq Kazımovun dəvəti ilə xalq yazıçısı İlyas Əfəndiyevin "Sən həmişə mənimləsən" əsəri əsasında hazırlanmış tamaşada Nargilə rolunu oynayıb. Bu rol ona çox böyük şöhrət qazandırıb. O, tələbə ikən tanınıb. 1964-cü ildən ömrünün sonunadək teatr və kino sahəsində beş yüzdən artıq obraz yaradıb. Onlardan Tomris, Natəvan, Medeya, Burla Xatun, Məhsəti, Larisa, Ofeliya, Linza kimi rolları qeyd etmək olar. Yaratdığı bənzərsiz obrazlarla milyonların sevimlisinə çevrilmiş sənətkar gözəl ifa tərzi və yüksək səhnə mədəniyyəti ilə qısa müddət ərzində teatr və kino həvəskarlarının rəğbətini qazanıb, sənətsevərlərin qəlbinə yol tapıb. İfadəli səs tembrinə malik istedadlı aktrisanın milli və dünya dramaturji irsinə müraciət edərək teatr səhnəsində böyük məharətlə canlandırdığı çox sayda yaddaqalan obrazlar öz təbiiliyi, həyatiliyi və lirik-psixoloji dərinliyi ilə səciyyələnir.

Teatr aktyorluğu sahəsində görkəmli sənətkar kimi tanınan Amalya Pənahova həm də məşhur kino ustası olub. O, onlarla filmdə müxtəlif xarakterli obrazlar qalereyası yaradıb.

Ə.Qarayev deyib ki, Amalya Pənahovanın təşəbbüsü ilə 1992-ci ildə Bakı Bələdiyyə Teatrı fəaliyyətə başlayıb. Bu teatra orta və yaşlı nəsillə yanaşı, gənc istedadlı aktyorları da cəlb edib və onların yaradıcılıq qabiliyyətinin inkişafı üçün hər cür lazımi şərait yaradıb. Ötən müddət ərzində bu teatr nəinki ölkəmizdə, həm də yaxın, uzaq məmləkətlərdə Azərbaycanı layiqincə təmsil edib.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində dərs deyən Amalya Pənahovanın teatr sənətini pedaqoji fəaliyyətlə uğurla əlaqələndirdiyini bildirən nazir vurğulayıb ki, o, respublikada gənc aktyorlar nəslinin yetişməsi üçün böyük əmək sərf edib.

Amalya Pənahovanın ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak etdiyini vurğulayan Ə.Qarayev deyib ki, o, ikinci çağırış Milli Məclisə deputat seçilərək mədəniyyət sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsinə öz töhfəsini verib.

Nazir bildirib ki, ömrünü Azərbaycan mədəniyyətinin inkişafına, təbliğinə sərf edən aktrisanın əməyi hər zaman dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, Azərbaycanla yanaşı, dünyanın bir sıra nüfuzlu beynəlxalq mədəniyyət ocaqlarının fəxri fərmanlarına, medallarına layiq görülüb.

Amalya Pənahova ilə bağlı xatirələrini bölüşən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının bədii rəhbər-direktoru, xalq artisti Azər Paşa Nemətov onu tələbəlik illərindən tanıdığını deyib: "İkinci kursda oxuyarkən yaratdığı Nargilə rolu onu çox məşhurlaşdırmışdı. Tələbələr ona qibtə ilə baxırdılar. Amalya təkcə aktrisa deyildi, o, həm də yaradıcı bir insan idi. O, yarım əsrdən çox bir dövrü əhatə edən sənət fəaliyyətində 12 televiziya və teatr tamaşasına quruluş verib. Bunların çoxu lentə alınıb və hazırda televiziyanın Qızıl fondunda saxlanılır. Bunlardan İ.Əfəndiyevin "Mənim günahım", M.Muradın "Təkan", M. Qurbanovun "Sənsiz", O.Altunbayın "Tomris", A.Məmmədovun "Dəli Domrul" və s. xüsusi qeyd etmək olar. Amalyanın yaradıcılığı böyük bir epoxanı əhatə edir. Bu dövr onun adı ilə bağlıdır".

Səhnədə ilk tərəf-müqabili olan Amalya Pənahovanı heç vaxt unutmayacağını söyləyən xalq artisti Nurəddin Mehdixanlı deyib ki, bu gün Azərbaycan tamaşaçısı bənzərsiz bir sənət fədaisi ilə vidalaşır. "Amalya Pənahova yaşadığı illər ərzində çoxlarının görə bilmədiyi işlərə imza atdı. O, sənətinin fədaisi idi. İstər teatrda, istər kinoda Amalya Pənahovanın gördüyü işlər bir-iki rolun adını çəkməklə bitib-tükənmir. Bu gün biz 19 yaşında bu səhnəyə çıxaraq hamının sevimlisinə çevrilmiş böyük bir sənətkarı 73 yaşında yola salırıq", - deyə N.Mehdixanlı bildirib.

Vida mərasimində xalq artistləri Hacı İsmayılov və Rafael Dadaşov sənət dostları Amalya Pənahova ilə bağlı xatirələrini bölüşüb, onun Azərbaycan teatr sənətinin inkişafı naminə gördüyü işlərdən söz açıblar.

Mərhumun ailəsi adından çıxış edən oğlu İlqar Muxtarov anasının xatirəsinə göstərilən ehtirama görə Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya dərin minnətdarlığını bildirib.

Sonra görkəmli sənətkarın cənazəsi son mənzilə yola salınıb.

Amalya Pənahova "Qurd qapısı" qəbiristanlığında, həyat yoldaşı, xalq artisti Yusif Muxtarovun yanında dəfn olunub.

Allah rəhmət eləsin!

# "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyasının növbəti mərhələsinə start verilir

## *X tur-aksiyada 76 şəhər və rayondan, ümumilikdə, 3190 nəfər iştirak edəcək*

Artıq beşinci ildir ki, Azərbaycanın orta ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" devizi altında Vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaları təşkil olunur. Dövlət başçısı İlham Əliyevin tövsiyəsinə əsasən Prezident Administrasiyasının təşkilatçılığı ilə keçirilən tur-aksiyalar gözəl ənənə halını alıb.

AZƏRTAC xəbər verir ki, layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaratmaqdır.

Ötən müddətdə ildə iki dəfə olmaqla 7 istiqamət üzrə (Bakı şəhəri, Naxçıvan MR, Gəncə-Şəmkir-Göygöl, Şamaxı-İsmayıllı-Qəbələ-Şəki-Zaqatala, Quba-Qusar-Xaçmaz, Lənkəran-Masallı-Lerik-Astara, Naftalan-Ağcabədi-Ağdam-Bərdə-Füzuli-Tərtər) 9 tur-aksiya təşkil edilib. Ölkəmizin bütün bölgələrinin əhatə olunduğu bu tur-aksiyalarda, ümumilikdə, 20 min 254 nəfər iştirak edib.

Noyabr ayının 14-17 və 18-21 tarixlərini əhatə edəcək növbəti 10-cu tur-aksiyada isə 4 istiqamət üzrə 76 şəhər və rayondan, o cümlədən məcburi köçkün rayonlarından, ümumilikdə, 3190 nəfər iştirak edəcək. Bununla da, "Ölkəmizi tanıyaq" tur-aksiyalarında iştirak edən məktəblilərin sayı 23 mindən çox olacaq.

Gəncə-Göygöl-Şəmkir istiqaməti üzrə səfər edəcək məktəblilər bu bölgədə genişmiqyaslı quruculuq işləri, maddi-mənəvi irsin qorunması və bərpası istiqamətində həyata keçirilən önəmli sosial layihələr, həmçinin 200 il əvvəl salınan alman məskənləri ilə tanış olacaqlar.

Məktəblilər Azərbaycanın ikinci ən böyük şəhəri Gəncənin sosial-iqtisadi və mədəni həyatı ilə yanaşı, Gəncənin yeni xəritəsində əksini tapmış müasir sənaye müəssisələri, turizm və sosial obyektləri, mədəniyyət ocaqları, yaraşıqlı prospektləri, park və xiyabanları ilə də ətraflı tanış olacaqlar.

Lənkəran-Masallı-Astara istiqaməti üzrə səfər edəcək məktəblilər bu bölgələrdə aparılmış abadlıq-quruculuq işləri barədə məlumat alacaq, eyni zamanda, tarixi məkanlarla, yeni tikililərlə yaxından tanış ola biləcəklər. Lənkəranda "Qoşa qala" qapılarına, Həzi Aslanovun ev-muzeyinə, Dairəvi qalaya, Mayak binasına, Hirkan Milli Parkına, Xanbulan gölünə, çay plantasiyalarına, sitrus meyvə bağlarına, Astarada şəhər bulvarına, "Yanar bulağ"a və "Astaraçay" çay fabrikinə, Masallıda Tarix-Diyarşünaslıq Muzeyinə, Uşaq İncəsənət Məktəbinə, Dövlət Rəmzləri Muzeyinə, "ASAN həyat" kompleksinə, Masallı Sənaye Məhəlləsinə və Viləşçay su anbarına ekskursiya şagirdlərin yaddaşında silinməz iz qoyacaq.

Ölkə iqtisadiyyatında önəmli rola malik olan bölgələrimizdən biri də Qəbələ-Şəki-Zaqatala zonasıdır. Bu rayonlarımız da digər bölgələrimiz kimi, həm turizm iqtisadiyyatı, multikulturalizm ənənələri, həm də tarixi məkanları ilə tanınır. Eyni zamanda, bu bölgədə barama, tütün və fındıqçılıq da geniş inkişaf edib. Prezident İlham Əliyevin sədrliyi ilə 2017-ci il avqustun 4-də Qaxda keçirilən barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsi bu baxımdan ölkəmizin iqtisadi həyatında mühüm hadisəyə çevrilib.

Ölkəmizin əsas turizm marşrutlarından biri olan Şəkidə "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzi də istifadəyə verilib. Mərkəzin məqsədi ölkəmizin, əsasən də Şəki rayonunun tarixi keramika ənənələrinin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi, həmçinin müxtəlif çeşidli Azərbaycan gilinin dünyada tanıdılmasıdır. Bura həm də Qafqazda ilk Keramika Mərkəzi kimi tarixə düşüb. Gələcəkdə Mərkəzdə tanınmış əcnəbi sənətkarların iştirakı ilə beynəlxalq tədbirlər, həmçinin müasir avadanlıqlardan istifadə etməklə təlimlər təşkil olunacaq. Mərkəzdə keramika sənətindən əlavə, xalçaçılıq və digər sənətkarlıq sahələri üzrə təlimlərin keçirilməsi də nəzərdə tutulur. Bütün bunlardan məqsəd yeni sənətkarların yetişdirilməsidir.

Dövlət başçısının Şəkiyə səfəri çərçivəsində Şəki-Kiş avtomobil yolu da istifadəyə verilib. Bu yolun inşası iki yaşayış məntəqəsi arasında yük və sərnişin daşınmasının yaxşılaşdırılmasına imkan verəcək, həmçinin yerli və xarici turistlərin Kiş kəndinə və "Marxal" istirahət mərkəzinə gediş-gəlişində mühüm rol oynayacaq.

Bu gün, sözün əsl mənasında, xalqın və dövlətin maraqlarına uyğun hərtərəfli müstəqil siyasət həyata keçirən, sürətli və davamlı inkişaf yolu ilə uğurla addımlayan suveren Azərbaycanın üzərində əzəmətlə dalğalanan üçrəngli bayrağımız hər bir vətəndaşımızın qəlbində qürur və fərəh hissi doğurur. Bölgələrimizdə, o cümlədən Şəkidə Bayraq Muzeyinin yaradılması bunun bariz nümunəsidir. Belə muzeylərin yaradılması dövlət atributlarına olan sonsuz sevgini nümayiş etdirməklə yanaşı, gənc nəslin Azərbaycan bayrağına hörmət ruhunda tərbiyə olunmasına mühüm töhfə verir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 29-da Şəkidə Bayraq Muzeyinin açılışında da iştirak ediblər.

Bu istiqamət üzrə səfər edəcək şagirdlər müasir turizm infrastrukturuna malik olan Qəbələdə "Tufandağ" Xizəkçilik Kompleksinə, qədimliyi ilə fərqlənən Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna, udilərin yaşadığı Nic kəndinə baş çəkəcəklər. Zəngin Şəki mətbəxi, Dövlət Tarix-Memarlıq Qoruğu, Şəki Xan sarayı, Yuxarı Karvansaray, Aşağı Karvansaray, Cümə məscidi və Kiş kəndindəki qədim Alban məbədi, "Marxal" müalicəvi istirahət kompleksi, Heydər Əliyev Mərkəzi, Bayraq Muzeyi, "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzi tur-aksiya iştirakçılarında zəngin təəssürat oyadacaq. Məktəblilər vaxtilə gülçülük, tütünçülük və fındıq bağları ilə məşhur olan Zaqatalaya da gedəcəklər.

Quba-Qusar-Xaçmaz bölgəsində də son illər aqrar sahənin, emal müəssisələrinin, xüsusən də turizm sənayesinin inkişafı istiqamətində çox böyük işlər görülüb. Bu bölgə həm də tarixi məkanları ilə tanınır. Aksiya iştirakçıları bütün bunlar barədə məlumat alacaq, eyni zamanda, Quba Soyqırımı Memorial Kompleksində erməni vəhşiliyinin əyani şahidi olacaqlar. Azərbaycanın bu dilbər guşəsi multikultural ənənələri ilə seçilir. Bölgədə müxtəlif xalqların nümayəndələri əsrlərdən bəri dinc şəraitdə yaşayır, həm öz mədəniyyətlərini, həm də Azərbaycan xalqının mədəniyyətini zənginləşdirirlər. Yəhudilərin sıx məskunlaşdığı Qırmızı qəsəbəyə, Quba xalçaçılıq emalatxanasına, Cümə məscidinə, Tağlı körpüyə, Xınalıq yolundakı şəlaləyə, qolf meydançasına, "ABAD Factory" İstehsalat Kompleksinə ekskursiyalar məktəblilərin yaddaşında silinməz izlər qoyacaq. Qubada fəaliyyətə başlayan "ASAN həyat" kompleksi barədə məlumatlar da tur-aksiya iştirakçılarının marağına səbəb olacaq.

Azərbaycanın şimal bölgəsi iqtisadiyyatı ilə bərabər, turizmin inkişafı üçün də cəlbedici məkandır. Son illərdə bu bölgədə turizm infrastrukturunun yaradılması istiqamətində mühüm addımlar atılıb. Qusar rayonunda "Şahdağ" turizm mərkəzinə gələn turistlərin sayı ilbəil artır. Bu mərkəzi Azərbaycanın turizm brendi hesab etmək olar. Şahdağ təbiətin bütün fəsillərində öz gözəlliyi ilə fərqlənir. Məktəblilər bu mərkəzə səfərlə yanaşı, Qusar şəhərinin görməli yerlərini gəzəcək, Həzrə kəndindəki "Şeyx Cüneyd" türbəsi ilə tanış olacaqlar. Bu istiqamətdə tur-aksiyanın növbəti məkanı Xaçmaz rayonu olacaq. Xaçmaz şəhərindəki "Şəxsiyyətlər muzeyi"nə, Çənlibel parkına, xalça muzeyinə ekskursiyalar, rayonun sosial-iqtisadi inkişafı ilə bağlı görülən işlər məktəblilərdə böyük maraq doğuracaq.

Şagirdlərə, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, o cümlədən 1994-cü il mayın 12-dən qüvvədə olan atəşkəsə məhəl qoymayan Ermənistan silahlı qüvvələrinin mövqelərimizə daim atəş açması, dinc əhalini, yaşayış yerlərini gülləboran etməsi barədə ətraflı məlumat veriləcək. Belə ki, düşmən növbəti dəfə təxribata əl ataraq 2016-cı il aprelin 2-də yenidən mövqelərimizə hücuma keçib, bir neçə dinc sakini qətlə yetirib, Azərbaycan Ordusu bu hücumun qarşısını almaq üçün əks-hücumla bir sıra məntəqələri və yüksəklikləri azad edib. Lələtəpə yüksəkliyinin azad olunması ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə yenidən həyat qayıtdı. Prezident İlham Əliyevin böyük diqqət və qayğısı nəticəsində kənd qısa müddətdə yenidən quruldu, məcburi köçkünlər öz doğma yurdlarına döndülər. Aprel müharibəsi bir daha sübut etdi ki, Azərbaycan əsgəri, xalqımız nəinki müharibəyə tam hazırdır, hətta onu qısa vaxtda qalibiyyətlə başa çatdırmaq imkanındadır. Bu barədə məlumatlar məktəblilərin vətənpərvərlik ruhunu yüksəldəcək.

Ekskursiya zamanı məktəblilər Azərbaycanın təşəbbüsü ilə reallaşan bir sıra qlobal layihələr barədə də məlumatlandırılacaqlar. Diqqətə çatdırılacaq ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın yeni neft strategiyasının başlanğıcı hesab olunursa, bu strategiyanı uğurla davam etdirən Prezident İlham Əliyevin iştirakı ilə 2017-ci il sentyabrın 14-də Bakıda Heydər Əliyev Mərkəzində imzalanan "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi müddətinin 2050-ci ilədək uzadılmasına dair saziş isə "Yeni əsrin müqaviləsi" adlandırılır. İmzalanma mərasimində bir sıra nüfuzlu dövlətlərin, dünyanın nəhəng neft şirkətlərinin rəhbər şəxslərinin iştirakı buna sübutdur. Beləliklə, yeni müqaviləyə görə, AÇG-dən 2050-ci ilədək çıxarılacaq neftdən gələn gəlirlər ölkəmizin sosial-iqtisadi inkişafını daha da sürətləndirəcək. Yeni müqavilə həm də xarici tərəfdaş şirkətlərin Azərbaycan iqtisadiyyatına olan inamını göstərir.

Son illər Azərbaycanda nəqliyyat infrastrukturuna böyük investisiya yatırılır. 2017-ci il oktyabrın 30-da açılışı olan və qitələri birləşdirən, dəmir İpək Yolu adlandırılan Bakı-Tbilisi-Qars dəmir yolu ilə Londondan Pekinədək qatarlar hərəkət edəcək, yük və sərnişin daşınacaq. Bu layihənin təkcə iqtisadi deyil, həm də geostrateji əhəmiyyəti var.

Məktəblilərə mayın 29-da Səngəçal terminalında rəsmi açılış mərasimi keçirilən "Cənub qaz dəhlizi", iyunun 12-də Türkiyədə TANAP qaz kəmərinin istifadəyə verilməsi, sentyabrın 26-da "Azerspace 2" peykinin orbitə buraxılması, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə keçirilən tədbirlər, iyunun 26-da Silahlı Qüvvələrimizin yaradılmasının, sentyabrın 15-də Bakı şəhərinin işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş hərbi paradlar barədə də məlumatlar veriləcək.

Aksiyanın bu mərhələsində məktəblilərin asudə vaxtlarında "Nə? Harada? Nə vaxt?" intellektual oyunları keçiriləcək, qaliblərə xatirə hədiyyələri veriləcək, onlar üçün teatr tamaşaları və konsert proqramları təşkil ediləcək.

# Dünyanın ən sürətli qapıçısı Bakıya gəlir

## *"Robokiper"ə qol vura bilənləri "Azercell"dən hədiyyə gözləyir*

Sevindirici haldır ki, Azərbaycan dünyanın ən son texnoloji yeniliklərinin nümayiş olunduğu məkana çevrilib. Məşhur "Robot Sofiya"dan sonra Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyilə dünyanın ən sürətli qapıçısı "Robokiper" ölkəmizə gətiriləcək.

"Robokiper" cari ilin dekabr ayının 4-7-də "Azercell Telekom MMC"-nin baş sponsorluğu ilə baş tutacaq "Bakutel-2018" 24-cü Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgi və konfransında təqdim olunacaq.

"Robokiper" dünyanın ən bacarıqlı və sürətli qapıçısı hesab edilir. Alman alimlərinin bu ixtirası ultra-modern və unikal texnologiyaya əsaslanır. Buna görə də "Robokiper"ə qol vurmaq demək olar ki, mümkün deyil. Topa nə qədər sürətlə zərbə vurulsa da, "ağıllı qapıçı" həmin topu geri qaytarır, qapıdan keçməsinə imkan vermir. Mürəkkəb texnologiya qapıçının zərbəyə dərhal reaksiya verməsinə imkan yaradır. Dünyanın ən məşhur futbol komandalarının üzvləri "ağıllı qapıçı" ilə duelə çıxıb uduzublar. Hətta Messi, Neymar, Ronaldinyo kimi futbol ulduzları da "Robokiper"ə qol vura bilməyiblər.

İndi isə Azərbaycan klublarının tanınmış futbolçuları "Robokiper"ə qol



vurmağa çalışacaqlar. Azərbaycan milli komandasının və "Qarabağ" klubunun baş məşqçisi Qurban Qurbanov, həmçinin "Bakutel 2018" sərgi-konfransının açılışına dəvət olunan digər futbolçular "Robokiper"lə yarışacaqlar.

Azərbaycanlı futbolçularla yanaşı, sərginin iştirakçılarına da "Robokiper"lə yarışmaq təklif olunacaq. "Bakutel 2018" sərgisinin qonaqları və iştirakçıları bu bacarıqlı qapıçıya top vurmaqla güclərini sınaya bilərlər.

Sərgi zamanı "Robokiper"ə qalib gələnlər isə hədiyyə qazanacaqlar. Sərginin baş sponsoru Azercell şirkəti hər qol vuran oyun iştirakçısına 10 AZN dəyərində danışıq kartı və digər hədiyyələr təqdim edəcək.

Bu maraqlı əyləncədə hər kəs - qadın və uşaqlar da daxil olmaqla istənilən şəxs iştirak edə bilər. "Robokiper"lə yarışmaq üçün əsl futbol oyununda olduğu kimi, topa yaxınlaşıb penalti vurmaq lazımdır. Top vuran şəxsin peşəkar idmançı, yaxud həvəskar olmasının fərqi yoxdur. Dünyada cəmi 10 nüsxədə mövcud olan "Robokiper" hər yerdə maraqla qarşılanır, insanlar "ağıllı qapıçı"ya qalib gəlmək üçün növbəyə dayanırlar.

Xatırladaq ki, gələn il mayın 29-da Olimpiya stadionunda UEFA Avropa Liqasının final matçı keçiriləcək. Məhz bu ərəfədə "Robokiper" texnologiyasının Bakıda nümayiş olunması gənclər arasında idmana, xüsusilə də futbola marağın artırılması məqsədinə xidmət edəcək.

"Azercell Telekom" MMC artıq 24-cü dəfədir ki, keçirilən "Bakutel" sərgisinin ən aktiv iştirakçısı və baş sponsorudur. Şirkət müxtəlif texnoloji yenilikləri ilk dəfə olaraq məhz "Bakutel" sərgisində nümayiş etdirib. Hər il "Bakutel"də məhz Azercell-in stendi sərgi iştirakçıları və qonaqlar tərəfindən böyük maraqla qarşılanıb. Şirkət tərəfindən "Bakutel" sərgisində canlı yayınlar, hədiyyəli oyun və viktorinalar, əyləncələr təşkil olunub.

Bu il də "Bakutel" sərgisində İKT sahəsinin ən qabaqcıl texnologiyaları nümayiş etdiriləcək, yeni biznes əlaqələrinin yaradılması üçün platforma ortaya qoyulacaq. Sərgi iştirakçıları isə maraqlı və əyləncəli vaxt keçirəcəklər.

***"Azərbaycan"***

**BİLDİRİŞ**

*Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin Turizm üzrə təlim və Səyahət xidmətlərinin satın alınması ilə əlaqədar 2 noyabr tarixində elan etdiyi təkliflər sorğusu proseduru üzrə təklif zərflərinin qəbulu tarixi 15 noyabr 2018-ci il tarixi, saat 12:00-a qədər uzadılmışdır.*

***Tender Komissiyası***

**BİLDİRİŞ**

*Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin "Ölkə Miqyasında Əsas Turizm Marşrutlarının İstiqamətləndirilməsi və Nişana Alınması" işlərinin satın alınması ilə əlaqədar 2 noyabr tarixində elan etdiyi təkliflər sorğusu proseduru üzrə təklif zərflərinin qəbulu tarixi 15 noyabr 2018-ci il tarixi, saat 12:00-a qədər uzadılmışdır.*

***Tender Komissiyası***

**BİLDİRİŞ**

*Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin Rəqəmsal marketinq xidmətlərinin satın alınması ilə əlaqədar 2 noyabr tarixində elan etdiyi təkliflər sorğusu proseduru üzrə təklif zərflərinin qəbulu tarixi 15 noyabr 2018-ci il tarixi, saat 12:00-a qədər uzadılmışdır.*

***Tender Komissiyası***

# Norveçin Azərbaycanda səfirliyini bağlaması qərarı təəssüf doğurur

Norveçin Xarici İşlər Nazirliyi Azərbaycandakı səfirliyini bağlayacağı ilə bağlı məlumat yayıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri vəzifəsini icra edən Leyla Abdullayeva KİV-ə açıqlamasında məsələyə münasibət bildirərək deyib:

- Norveçin Azərbaycanda səfirliyini bağlaması qərarı təəssüf doğurur, lakin bu, Norveç hökumətinin qərarıdır. Azərbaycan Norveçlə hərtərəfli xoş münasibətlərə malikdir. Bu ölkənin ən iri enerji şirkəti olan "Equinor" (əvvəlki "Statoil") 1990-cı illərdə Azərbaycana gələn ilk xarici şirkətlərdən biri və "Əsrin müqaviləsi"nin iştirakçısı olub. Norveçli vikinqlərlə azərbaycanlılar arasında qədim əlaqələr və bağlılığın mövcudluğu nəzəriyyəsinin müəllifi, Norveçin tanınmış alim-etnoqrafı Tur Heyerdal Azərbaycanın böyük dostu olub. İki ölkə arasında müxtəlif sahələrdə çoxsaylı və faydalı layihələr həyata keçirilib. Hazırda bizdə olan məlumata görə, Norveç tərəfi Azərbaycanda öz təmsilçiliyini konsulluq fəaliyyəti vasitəsilə saxlamaq niyyətindədir. Lakin bu təmsilçiliyin fəxri və ya diplomatik konsulluq statusunda həyata keçiriləcəyi hələ ki tam aydın deyil.

Azercell

abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 12.11.2018-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya anası

**SÜSƏN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitənin üzvləri Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarova anası

**QÖNÇƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin kollektivi komitənin sədri Mübariz Qurbanlıya anası

**SÜSƏN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

İxtiyar Hüseynli, Rəşad Cəfərli və Elçin Cəfərov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya anası

**SÜSƏN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin əməkdaşları Kamil və Əbülfəs Atakişiyevlərə anaları

**ŞABİKƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Şəhər Prokurorluğunun rəhbərliyi və kollektivi prokurorluğun İstintaqa nəzarət şöbəsinin rəisi Tariyel Qurbanova anası

**SÜSƏN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8398
Sifariş 3299